AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# 2025-Cİ İL ƏRZİNDƏ ƏSAS MƏQSƏD VƏ FUNKSİYALARIN HƏYATA KEÇİRİLMƏSİ BARƏDƏ

# H E S A B A T

**Mündəricat**


**Giriş.. 3**

**1. Məqsədlərin həyata keçirilməsi 3**

1.1. Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi 3

1.2. Əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətlər daxilində maliyyə sabitliyinin təmin edilməsi 4

**2. Funksiyaların həyata keçirilməsi 4**

2.1. Dövlətin pul və məzənnə siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi 5

2.2. Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması 7

2.3. Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi 7

2.4. Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi 8

2.5. Beynəlxalq standart və metodologiyalara uyğun olaraq monetar, maliyyə bazarları və ödəniş sistemləri üzrə statistikanın, ölkənin tədiyə balansının beynəlxalq investisiya balansının və icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılmasının təmin edilməsi, habelə ölkənin tədiyə balansının proqnozlaşdırılmasında iştirak edilməsi 9

2.6. Maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığının təmin edilməsi, maliyyə bazarlarında tənzimləmə və nəzarətin, o cümlədən makroprudensial tənzimləmə və nəzarətin həyata keçirilməsi 10

2.7. Ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi, inkişafına dəstək verilməsi 18

2.8. Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması və maliyyə maarifləndirmə işlərinin aparılması 20

2.9. Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi 25

2.10. Əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi 26

3. **Mərkəzi Bankın fəaliyyətinin maliyyə nəticələri 26**

## Giriş

Azərbaycan Respublikasının Mərkəzi Bankı 2025-ci ildə öz mandatına uyğun funksiyaların icrasını təmin etmiş, ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına yönəldilmiş siyasət həyata keçirmişdir.

Hesabat ilində Mərkəzi Bankın pul siyasəti “Azərbaycan Respublikası Mərkəzi Bankının 2025-ci il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı”na uyğun olaraq həyata keçirilmişdir. İl ərzində pul siyasəti qərarları makroiqtisadi proqnozlar və inflyasiya üzrə risk balansında baş verən dəyişikliklər nəzərə alınmaqla verilmişdir. Pul siyasəti alətləri maliyyə bazarlarında proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilmişdir. Banklararası pul bazarında qısamüddətli faiz dərəcələri Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət etmiş, pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi davam etdirilmişdir.

2025-ci ildə Mərkəzi Bankın maliyyə sabitliyi siyasətinin əsas prioritetlərini maliyyə-bank sisteminə etimadın qorunması, risklərin minimallaşdırılması, maliyyə sektorunda idarəetmə potensialının və şoklara qarşı dayanıqlığın artırılması təşkil etmişdir. İl ərzində real sektorun maliyyə resurslarına çıxışının genişlənməsi davam etmişdir. Biznesin kreditləşməsi və qiymətli kağızlar bazarında müşahidə olunan dinamika iqtisadi artımın maliyyələşmə imkanlarını genişləndirmiş, maliyyə sektorunun dərinliyi daha da yüksəlmişdir. Nağdsız ödənişlərin genişlənməsi maliyyə sektorunun resurs bazasını artırmışdır.

## 1. Məqsədlərin həyata keçirilməsi

*Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi və əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətləri daxilində maliyyə sabitliyinin təmin edilməsindən ibarətdir.*

### 1.1. Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi

*2025-ci ildə illik inflyasiya proqnozlaşdırılan trayektoriya üzrə hərəkət etmişdir. İlin sonuna illik inflyasiya hədəf diapazonu (4±2%) daxilində formalaşmışdır.*

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2025-ci ilin dekabr ayında 12 aylıq inflyasiya 5.2% olmuşdur. Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə alınmadan hesablanan illik baza inflyasiyası 4.8% təşkil etmişdir.

Dekabr ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə illik inflyasiya 6.4% təşkil etmişdir. Qeyri-qida məhsulları üzrə illik inflyasiya 2.5% olmuşdur. Əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə illik inflyasiya 5.7% təşkil etmişdir. Ümumilikdə, son bir ildə inflyasiyanın əsas mənbəyi ərzaq qiymətləri olmuşdur. Belə ki, qiymətlərin ümumi səviyyəsinin artımına qida məhsulları, alkoqollu içkilər və tütün məmulatlarının illik bahalaşmasının töhfəsi 2.8 faiz bəndi (54%) olmuşdur.

2025-ci ildə inflyasiyaya qlobal və daxili mühitlə bağlı bir sıra təklif və tələb amilləri təsir etmişdir. Mərkəzi Bankın qiymətləndirmələrinə görə illik inflyasiyaya dövlət istehlakı və ev təsərrüfatlarının istehlakı birlikdə 1.74 faiz bəndi, kənd təsərrüfatı istehsalçıları qiymətləri 2.67 faiz bəndi, ticarət tərəfdaşlarında inflyasiya 2.91 faiz bəndi artırıcı, manatın nominal effektiv məzənnəsinin dəyişimi 0.34 faiz bəndi və digər amillər (inflyasiya gözləntiləri və s.) 1.78 faiz bəndi azaldıcı təsir göstərmişdir.

### 1.2. Əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətlər daxilində maliyyə sabitliyinin təmin edilməsi

*2025-ci ildə həyata keçirilən tənzimləyici siyasət və nəzarət tədbirləri maliyyə sektorunun bütün sahələrinin dayanıqlı fəaliyyətini və maliyyə sisteminin sabitliyini təmin etmişdir.*

Hesabat ilində Mərkəzi Bank bank sektorunun maliyyə dayanıqlığının artırılması istiqamətində bir sıra siyasət tədbirləri görmüşdür. Risk əsaslı nəzarət mexanizmlərinin tətbiqi istiqamətində işlərin görülməsi, risklərin həssas sahələrini əhatə edən prudensial tələblərin gücləndirilməsi, həmçinin sektorla effektiv dialoq və tənzimləmə-nəzarət çərçivəsinin modernləşdirilməsi maliyyə sabitliyinin təmin olunmasında mühüm rol oynamışdır. Bazel Komitəsinin tövsiyələrinə uyğun olaraq bank sektorunun dayanıqlığını artırmaq və maliyyə sabitliyini dəstəkləmək məqsədilə Mərkəzi Bank tərəfindən bankların kapitalı üzərində kontr-tsiklik kapital buferi aktivləşdirilmişdir. Əməliyyat risklərinin idarə edilməsi istiqamətində requlyativ tələblərin müəyyən olunması, o cümlədən prudensial hesabatlılıq və məlumat bazasının yaradılmasını təmin etmək məqsədilə "Banklarda əməliyyat risklərinin idarə edilməsi qaydası" təsdiq olunmuşdur.

2025-ci ildə bank sektorunun maliyyə vasitəçiliyi funksiyası genişlənmiş, aktiv kreditləşmə fəaliyyəti davam etmişdir. Kredit portfelinin artım dinamikası fonunda tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi və kredit təşkilatları tərəfindən risklərin effektiv idarə edilməsi təmin edilmişdir.

Hesabat ili ərzində bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri minimum tələbləri əhəmiyyətli üstələmişdir. Bank sektorunun gəlirliliyində də müsbət meyil davam etmiş, sektor il ərzində 1.2 mlrd. manata yaxın xalis mənfəət əldə etmişdir. 2025-ci ildə bank sektoru üzrə aktivlərin gəlirliliyi 2.1%, kapitalın gəlirliliyi isə 18.2% təşkil etmişdir. Bank sektorunda kapital adekvatlığı əmsalı 17.6% olmaqla minimum requlyativ tələbi əhəmiyyətli üstələmişdir. Eyni zamanda, bank sektoru üzrə likvidliyin örtülmə əmsalı (154%) requlyativ tələbdən 1.5 dəfə çox olmuşdur.

Dövr ərzində sığorta sektorunun maliyyə göstəriciləri yaxşılaşmış, o cümlədən inklüzivlik səviyyəsi və dərinliyi artmışdır. Hesabat dövründə sığorta sektoru üzrə beynəlxalq qanunvericiliyə və sığorta prinsiplərinə uyğun olaraq hazırlanan bir sıra normativ-hüquqi sənədlər təsdiq edilmişdir. Sektor yüksək mənfəətlə fəaliyyət göstərmişdir. Sektorun məcmu kapitalı tələb olunan kapitalı 1.6 dəfədən çox üstələməkdədir.

Kapital bazarında qiymətli kağızlar dövriyyəsi ötən illə müqayisədə əhəmiyyətli artmışdır. Kapital bazarı infrastrukturunun təkmilləşdirilməsi, tənzimləmə çərçivəsinin modernizasiyası istiqamətində tədbirlər davam etdirilmişdir.

Hesabat ilində ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyəti təmin edilmişdir. Ödəniş sisteminin inkişafına dəstək verilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir.

## 2. Funksiyaların həyata keçirilməsi

*Başlıca məqsədlərə nail olmaq üçün Mərkəzi Bank qanunvericiliyə müvafiq olaraq dövlətin pul və məzənnə siyasətini müəyyən etmək və həyata keçirmək, nağd pul dövriyyəsini təşkil etmək, manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən və elan etmək, valyuta tənzimini və nəzarətini həyata keçirmək, hesabat tədiyə balansını tərtib etmək və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak etmək,*

*sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlamaq və idarə etmək, maliyyə bazarlarının fəaliyyətinin sabitliyini və dayanıqlığını təmin etmək, ölkənin icmal xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib etmək və digər funksiyaların həyata keçirilməsini təmin etmək istiqamətində zəruri işlər görmüşdür.*

## 2.1. Dövlətin pul və məzənnə siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi

*2025-ci ildə Mərkəzi Bankın pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilmişdir. İl ərzində pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi tədbirləri davam etdirilmişdir.*

2025-ci ildə faiz dəhlizi parametrləri öncədən nəzərdə tutulmuş qrafik üzrə 8 dəfə müzakirə edilmişdir. Mərkəzi Bankın İdarə Heyətinin pul siyasətinə həsr edilmiş 6 iclasında uçot dərəcəsinin sabit saxlanılması, 2 iclasında isə azaldılması barədə qərar qəbul edilmişdir. Ümumilikdə il ərzində pul siyasəti yumşaldılmış, uçot dərəcəsi 7.25%-dən 6.75%-ə, faiz dəhlizinin yuxarı həddi 8.25%-dən 7.75%-ə, dəhlizin aşağı həddi isə 6.25%-dən 5.75%-ə endirilmişdir. Faktiki inflyasiyanın proqnoz trayektoriyasına uyğunluğu, son qlobal iqtisadi və geosiyasi proseslərin təsiri, ölkənin makroiqtisadi vəziyyəti, inflyasiyanın risk balansında baş verən dəyişikliklər və pul siyasəti qərarlarının iqtisadiyyata ötürücülük xüsusiyyətləri bu qərarları şərtləndirmişdir. 2025-ci ilin sonuna  uçot dərəcəsi son 4 ilin minimum səviyyəsində və neytral faiz dərəcəsinə yaxın olmuşdur.

2025-ci ildə pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq edilmişdir. İl ərzində pul siyasəti hədəflərinə nail olmaq üçün açıq bazar əməliyyatları və daimi imkan alətlərindən aktiv istifadə olunmuşdur. Pul siyasəti alətləri pul siyasətindən kənar (avtonom) amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına xidmət etmişdir. Pul siyasəti hədəflərinə nail olmaq üçün açıq bazar əməliyyatları üzrə kəmiyyət parametrlərinə dair qərarlar likvidliyin monitorinqi və proqnozlaşdırılması əsasında verilmişdir.

2025-ci ilin aprel ayından etibarən vahid xəzinə hesabının milli valyutada olan vəsaitlərinin yerli banklarda depozitə yerləşdirilməsi ilə bağlı bank sektorunda likvidliyin artmasına reaksiya kimi Mərkəzi Bank sterilizasiya əməliyyatlarını aktivləşdirmişdir. Belə ki, banklararası pul bazarında faizləri tənzimləmək, avtonom amillərin təsirlərini operativ şəkildə məhdudlaşdırmaq məqsədilə hesabat ilində 1 həftəlik əməliyyatların həcmi artırılmışdır. Açıq bazar əməliyyatları qismində sterilizasiya məqsədilə həmçinin 28 günlük (1 ay), 84 günlük (3 ay), 168 günlük (6 ay) və 252 günlük (9 ay) notların yerləşdirilməsi üzrə hərraclar davam etdirilmişdir. Ümumilikdə, 2025-ci il ərzində 17 repo, 58 depozit hərracı və 170 müxtəlif müddətli not hərracı baş tutmuşdur. 2025-ci il ərzində dövriyyədə olan notların qalığı bank sistemindəki vəziyyətdən asılı olaraq dəyişkən olmuş, avqust ayında 744.2 mln. manat olmaqla ilin maksimum səviyyəsinə çatmışdır. Dekabr ayının sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitin toplam qalığı isə 370.8 mln. manat təşkil etmişdir.

Hesabat ilində məcburi ehtiyat normalarında dəyişiklik edilməmişdir. Aparılmış monitorinqlərin nəticələrinə əsasən 2025-ci ildə bankların həm milli, həm də xarici valyutada Mərkəzi Bankdakı müxbir hesablarının toplam qalıqları dövr üçün məcburi ehtiyat kimi saxlanmalı olan cəmi vəsaitlərin həcmini ümumilikdə üstələmişdir. Məcburi ehtiyat normalarının ortalama rejimində tətbiqinin davam etdirilməsi banklar tərəfindən likvidliyin çevik və effektiv idarə edilməsinə dəstək vermişdir.

İl ərzində pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi işləri davam etdirilmişdir. 2025-ci ilin fevral ayında daimi imkan və açıq bazar əməliyyatlarının aparılması şərtlərində dəyişikliklər edilmişdir. Belə ki, bir günlük daimi imkan depozit və əks-repo əməliyyatlarının müddəti 1 günlükdən 1 gecəliyə keçirilmişdir. İyun ayından etibarən sterilizasiya əməliyyatlarının effektivliyini artırmaq üçün 7 günlük repo əməliyyatı 7 günlük depozit əməliyyatı ilə əvəzlənmişdir. İl ərzində not hərraclarında minimum iştirakçı sayına qoyulan tələb də aradan qaldırılmışdır.

Ümumilikdə, 2025-ci il ərzində Mərkəzi Bankın həyata keçirdiyi monetar əməliyyatlar banklar tərəfindən likvidliyin effektiv idarə olunmasına, banklararası bazardakı aktivliyə və faiz ötürücülüyünün güclənməsinə müsbət təsir etmişdir. Belə ki, pul siyasəti alətlərinin çevik tətbiqi nəticəsində banklar öz vəsaitlərini daha səmərəli yerləşdirmək, eyni zamanda qısamüddətli likvidlik ehtiyaclarını qarşılamaq imkanı əldə etmişlər.

Hesabat ili ərzində banklararası bazarda fəallıq davam etmişdir. 2025-ci ildə Blumberq ticarət sistemində banklar arasında ümumi həcmi 65.4 mlrd. manat olan 3 661 ədəd təminatsız əqd bağlanmışdır. Bu əməliyyatların cəmi həcminin 95%-i 1-3 günlük əqdlər hesabına formalaşmışdır.

2025-ci ildə banklararası təminatsız pul bazarında formalaşan AZIR indeksi faiz dəhlizi çərçivəsində qərarlaşaraq uçot dərəcəsinə yaxın hərəkət etmişdir. İl ərzində uçot faiz dərəcəsinin 2 dəfə azaldılmasına AZIR indeksi çevik reaksiya vermişdir. İndeksin uçot dərəcəsindən kənarlaşması da il ərzində kiçilməyə davam etmişdir. Belə ki, AZIR indeksinin uçot faiz dərəcəsindən kənarlaşması 2025-ci ilin ilk yarısında 0.36 f.b olduğu halda, ikinci yarımillikdə eyni göstərici 0.07 f.b səviyyəsinə enmişdir. Ümumilikdə, 2025-ci il ərzində AZIR indeksinin uçot dərəcəsindən standart kənarlaşması 0.28 f.b olmuşdur ki, bu da ötən ilə nəzərən 0.36 f.b azdır.

2025-ci ilin 15 may tarixində Mərkəzi Bank banklararası pul bazarında gedən proseslərin təhlilini və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq Avropa Yenidənqurma və İnkişaf Bankının ekspertləri ilə sıx əməkdaşlıq çərçivəsində AZIR indeksinin hesablanmasının yeni və daha təkmil qaydalarını hazırlayaraq təsdiq etmişdir. İndeksin əsassız kəskin dəyişkənliyinə imkan verməmək üçün yeni metodologiyada orta bazar faizlərindən kəskin fərqlənən faiz dərəcələri ilə bağlanılmış əqdlərin ən yüksək və ən aşağı faizlərlə bağlanılmış 10%-lik hissəsi hesablamadan çıxarılmışdır. Eləcə də, yeni qaydalarda tələb olunan həcmlərdə və sayda əməliyyatların olmadığı günlərdə də AZIR-in dərcinin davamlılığı üçün ehtiyat hesablama planları nəzərdə tutulmuşdur. AZIR-in dərcində fasilələrin aradan qaldırılmasına yönəlmiş bu dəyişikliklər AZIR-in istinad dərəcəsi kimi pul bazarının iştirakçıları tərəfindən davamlı istifadəsinə xidmət edir. 2025-ci ilin son rübündə isə Avropa Yenidənqurma və İnkişaf Bankı yerli valyuta ilə daxili bazarda ilk dəfə istiqraz emissiyası həyata keçirmişdir. Daxili bazarda buraxılan ilk dəyişkən faizli bu qiymətli kağızların kupon faiz dərəcəsi Mərkəzi Bank tərəfindən hesablanan AZIR indeksi əsasında formalaşır. Bu tarixi hadisə AZIR-in maliyyə alətlərində baza faiz göstəricisi kimi əhəmiyyətini artırmaqla yanaşı, onun istifadəsinin miqyasını da genişləndirir. AZIR indeksinin etibarlı istinad mexanizmi kimi tətbiqi ölkənin maliyyə bazarlarının dərinləşməsinə şərait yaradır və gələcəkdə daha mürəkkəb maliyyə məhsullarının inkişafı üçün əlverişli mühit formalaşdırır.

Təhlillər göstərir ki, 2025-ci ilin iyul və dekabr aylarında iki mərhələdə uçot dərəcəsinin toplam olaraq 0.5 f.b. endirilməsi maliyyə bazarlarının müxtəlif seqmentlərində faizlərin azalması ilə müşayiət olunub. Belə ki, 2025-ci ilin II yarısında Mərkəzi Bankın

notlarının və dövlət qiymətli kağızlarının gəlirliliyində, eləcə də manatla cəlb edilən yeni depozit və yeni kredit faizlərində azalmalar qeydə alınıb.

2025-ci ildə manatla pul bazası 7.4%, manatla geniş pul kütləsi (M2) isə 10.2% artmışdır. Əvvəlki ildə olduğu kimi 2025-ci ildə də hökumət hesabları qalıqlarının dəyişimi pul təklifinə təsir edən əsas amillərdən biri olmuşdur.

Pul siyasətinin effektiv kommunikasiyası hesabat ilində də diqqətdə saxlanılmışdır. Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri müvafiq analitik şərhlərlə dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmiş, posterlər yayımlanmış, pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi və sosial şəbəkələr vasitəsilə ardıcıl və sistemli şəkildə işıqlandırılmışdır. Maliyyə sektorunun nümayəndələri, eləcə də müstəqil iqtisadçı ekspertlərlə müntəzəm görüşlər davam etdirilmişdir.

### 2.2. Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması

*2025-ci il ərzində iqtisadiyyatın nağd pula tələbatı tam həcmdə, adekvat strukturda və vaxtında ödənilmiş, pul nişanları üzrə zəruri ehtiyatlar yaradılmışdır.*

Hesabat ilində Mərkəzi Banka dövriyyədən 4.5 mlrd. manat pul nişanı mədaxil edilmiş, 6.6 mlrd. manat pul nişanı isə məxaric olunmuşdur. Tədavüldə nağd pul kütləsi ilin əvvəli ilə müqayisədə 12.1% (2.1 mln. manat) artaraq ilin sonuna 19.6 mlrd. manat təşkil etmişdir. 2025-ci ilin son iş gününə milli valyuta üzrə ehtiyatlar 7.1 mlrd. manat təşkil edir ki, bu da iqtisadiyyatın 2026-cı ilin sonunadək tələbatının ümumilikdə ödənilməsi üçün yetərlidir.

Pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin təşkili və hüquq mühafizə orqanları ilə koordinasiya diqqət mərkəzində saxlanılmışdır. Hesabat ilində milli valyutada 440 ədəd (39 min manat) saxta pul nişanı, xarici valyutada isə 550 ədəd saxtakarlıq əlamətləri müəyyən edilmiş pul nişanı aşkarlanaraq tədavüldən çıxarılmış və müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə orqanlarına təqdim edilmişdir.

Əhalidə olan yararsız pul nişanlarının ekspertizaya qəbul edilməsi və dəyişdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən Bakı şəhərində və ərazi idarələrində yaradılmış nağd pul ofisləri fəaliyyətini davam etdirmişdir. 2025-ci il ərzində əhalidən 2.63 mln. manat (43.6 min ədəd) pul nişanı qəbul edilərək dəyişdirilmişdir.

Bütövlükdə Mərkəzi Bank tərəfindən ölkə iqtisadiyyatının ayrı-ayrı nominallar üzrə nağd pula olan tələbatının ödənilməsi, milli valyuta üzrə ehtiyatların optimal və təhlükəsiz idarə olunması, tədavülün yüksək keyfiyyətli pul nişanları ilə təmin edilməsi kimi prioritetlər diqqət mərkəzində saxlanılmışdır.

### 2.3. Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi

*2025-ci ildə manatın xarici valyutalara qarşı məzənnəsi valyuta bazarında tələb-təklif nisbətindən asılı olaraq formalaşmışdır. Xarici sektor göstəricilərinin əlverişli olması qiymət sabitliyinin əsas lövbəri olan məzənnə sabitliyini dəstəkləmişdir.*

İl ərzində manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (Blumberq platformasında hərraclar və hərracdankənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmiş və orta günlük 1.7 manat təşkil etmişdir. Kommersiya bankları tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi

məzənnəyə yaxın diapazonda formalaşmışdır. Belə ki, bankların orta hesabla günlük alış məzənnəsi 1 ABŞ dollarına nəzərən 1.6948 manat, satış məzənnəsi isə 1.7018 manat olmuşdur. 1 ABŞ dolları üçün gündəlik ortalama alış məzənnəsi rəsmi məzənnədən 0.31%, satış məzənnəsi isə 0.11% fərqli olmuşdur.

2025-ci ildə Mərkəzi Bankda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) valyuta satışlarının həyata keçirilməsi üzrə 98 valyuta hərracı baş tutmuşdur. Bu hərraclarda bazarın xarici valyutaya tələbi tam ödənilmişdir.

Ümumilikdə, hesabat ilində valyuta bazarındakı stabillik qiymət sabitliyinin təmin edilməsində mühüm rol oynamağa davam etmişdir. 2025-ci ildə mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 423 mln. ABŞ dolları üstələmişdir. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin 2025-ci ildə 2.6 faiz bəndi azalaraq 28%-ə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Bu şəraitdə 2025-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatları artmışdır.

İl ərzində manatın məzənnəsi ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı müxtəlif istiqamətdə dəyişmişdir. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnəyə də təsir göstərmişdir. Qlobal ticarətdə baş verən proseslər əmtəə və maliyyə bazarlarında dalğalanmaları gücləndirmişdir. Bu şəraitdə dollar indeksi azalmış, dekabr ayında manatın qeyri-neft sektoru üzrə nominal effektiv məzənnəsi əvvəlki ilin sonuna nəzərən 5.2% ucuzlaşmışdır. Azərbaycandakı inflyasiyanın tərəfdaş ölkələrdəki orta inflyasiyadan aşağı olması real effektiv məzənnəyə azaldıcı təsir etmişdir. Dekabrda manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsi ötən ilin sonuna nəzərən 7.7% ucuzlaşmışdır.

### 2.4. Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi

*2025-ci il ərzində Mərkəzi Bankın valyuta ehtiyatlarının mövcud strategiya və qaydalar çərçivəsində idarə edilməsi davam etdirilmişdir.*

Hesabat ili ərzində Mərkəzi Bankın valyuta ehtiyatları qlobal maliyyə bazarlarında geosiyasi və geoiqtisadi reallıqlardan irəli gələn bazar dəyişkənliyi şəraitində idarə edilmişdir. ABŞ prezident administrasiyasının sərt tarif siyasəti ilə bağlı açıqlamaları həm qlobal miqyasda, həm də ABŞ-da iqtisadi artım tempinin aşağı düşəcəyi ilə bağlı bazar iştirakçıları arasında narahatlıqlara səbəb olmuşdur. İl ərzində azalan inflyasiya tempi fonunda ABŞ və Avropadakı əsas mərkəzi banklar yumşaq pul siyasəti kursunu həyata keçirsələr də, inflyasiyanın hələ də hədəf səviyyəsindən yuxarı olması mərkəzi bankları pul siyasəti qərarlarında ehtiyatlı davranmağa vadar etmişdir. Qeyd olunan amillər və artan qeyri-müəyyənliklər, eyni zamanda dolların dəyərinin aşağı düşməsinə səbəb olmuşdur.

Valyuta ehtiyatları 2025-ci il ərzində Mərkəzi Bankın pul siyasətinin dəstəklənməsinə xidmət edən əməliyyat tranşı və gəlirliliyin artırılması məqsədilə saxlanılan investisiya tranşı olmaqla iki hissəyə bölünərək idarə edilmişdir. 2025-ci ilin sonuna rəsmi valyuta ehtiyatlarının 93%-ni ABŞ dolları, 1%-ni Çin yuanı və Qətər rialı, 6%-ni isə SDR (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil etmişdir.

Hesabat ilində Mərkəzi Bankın valyuta ehtiyatları hər bir tranşın və altportfelin məqsədinə uyğun olaraq seçilmiş bençmarklar əsasında, xarici ölkələrin investisiya dərəcəli kredit reytinqinə malik dövlət və kvazi-dövlət borc öhdəliklərinə investisiya edilməklə idarə edilmişdir. Valyuta ehtiyatlarının idarə edilməsində daxili idarəetmə ilə yanaşı, xarici menecerlərlə əməkdaşlıq da davam etdirilmişdir.

2025-ci ildə Mərkəzi Bankın valyuta aktivlərinin idarə edilməsindən gəlirlər 505.5 mln. ABŞ dolları, gəlirlilik isə 4.6% təşkil etmiş və müvafiq bençmarkların gəlirliliyini üstələmişdir.

Hesabat ilində Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları idarəetmədən əldə edilən gəlirlər, daxili bazarda valyuta əməliyyatları və məzənnə fərqi hesabına 555.4 mln. ABŞ dolları və ya 5.1% artaraq 11.5 mlrd. ABŞ dolları səviyyəsinə çatmışdır.

### 2.5. Beynəlxalq standart və metodologiyalara uyğun olaraq monetar, maliyyə bazarları və ödəniş sistemləri üzrə statistikanın, ölkənin tədiyə balansının beynəlxalq investisiya balansının və icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılmasının təmin edilməsi, habelə ölkənin tədiyə balansının proqnozlaşdırılmasında iştirak edilməsi

*2025-ci ildə müvafiq qaydalar və beynəlxalq standartlar əsasında monetar statistikanın, maliyyə bazarları və ödəniş sistemləri statistikasının tərtibi davam etdirilmişdir. Məlumatlar müvafiq dövlət qurumlarına, beynəlxalq təşkilatlara və geniş ictimaiyyətə təqdim edilmişdir. Hesabat ili ərzində bir sıra dövlət təşkilatları, həmçinin Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq təşkilatlarla məlumat mübadiləsi həyata keçirilmişdir.*

Məlumatların yayımlanması qrafiki çərçivəsində Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan səhifəsi, həmçinin Mərkəzi Bankın rəsmi internet səhifəsi üçün makroiqtisadi, monetar, bank və digər maliyyə təşkilatlarının icmal göstəriciləri aylıq əsasda təqdim edilmiş, statistik bülletenlər yayımlanmışdır. Bununla yanaşı, 2025-ci ilin mart ayından etibarən ictimaiyyəti əsas statistik göstəricilər və analitik icmallarla operativ qaydada təmin etmək məqsədilə yeni "İnteraktiv statistik məlumat bazası" (Naviqasiya) yaradılaraq rəsmi internet saytına inteqrasiya edilmişdir.

Mərkəzi Bankın monetar əməliyyatlarına dair göstəricilər (Mərkəzi Bankın notları və dövlət istiqrazlarının yerləşdirilməsi üzrə hərracların nəticələri, manatın xarici valyutalara qarşı rəsmi orta aylıq məzənnələri, banklar arasında bağlanılan təminatsız əqdlər əsasında formalaşan AZIR indeksləri), sığorta sektoru statistikası (icmal maliyyə statistik göstəriciləri, sığorta sektorunda fəaliyyət göstərən şirkətlərin sığorta növlərinə görə sığorta haqları və sığorta ödənişləri), ödəniş statistikası (İnternet bankçılıq, Mobil bankçılıq, Banklararası Kart Mərkəzi vasitəsilə emal olunmuş ödəniş əməliyyatları, ödəniş kartları vasitəsilə ölkə xaricində aparılan əməliyyatlar, ödəniş xidməti şəbəkəsinin iqtisadi rayonlar üzrə statistikası barədə göstəricilər) geniş ictimaiyyətə, dövlət qurumlarına və beynəlxalq təşkilatlara təqdim edilmişdir. Həmçinin, Mərkəzi Bank tərəfindən ölkədə ödəniş sistemlərinin fəaliyyətinin təşkili, əlaqələndirilməsi, tənzimlənməsi, maliyyə inklüzivliyinin qiymətləndirilməsi məqsədilə elektron pul təşkilatlarından, ödəniş təşkilatlarından, bank olmayan kredit təşkilatlarından, ödəniş sistemi operatorlarından ödəniş statistikası üzrə məlumatların toplanılmasına başlanılmışdır.

2025-ci ildə rüblər üzrə tədiyə balansının müvafiq beynəlxalq standartlar əsasında tərtibi təmin edilmişdir. İl ərzində müvafiq beynəlxalq hesabatlılıq sistemləri çərçivəsində statistik göstəricilərin çarpaz qaydada dəqiqləşdirilməsi və emal prosesinin təkmilləşdirilməsi işləri davam etdirilmişdir.

2025-ci ildə tədiyə balansının proqnozlaşdırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə məsləhətləşmələr davam etdirilmişdir.

Xarici sektor üzrə statistikanın təkmilləşdirilməsi istiqamətində xidmət statistikasının, o cümlədən təhsil və səyahət statistikasının qiymətləndirilməsi, reinvestisiya edilmiş gəlirlər üzrə əməliyyatların alt təsnifatlarının formalaşdırılması, birbaşa xarici investisiyalar (xüsusilə infrastruktur layihələr və xarici investorların ölkəyə yenidən kapital qoyuluşları üzrə məlumatların dəqiqləşdirilməsi) və xarici borc statistikası (xüsusilə ticarət kreditlərin və avansların qiymətləndirilməsi) ilə bağlı bir sıra işlər görülmüşdür. Dövlət müəssisələrindən birbaşa və portfel investisiyalara dair (neft-qaz sektoru üzrə əhatə dairəsinin genişləndirilməsi) məlumatların dəqiqləşdirilməsinə imkan verən informasiyalar əldə edilmişdir.

Hesabat ilində icmal xarici borc statistikasının və beynəlxalq investisiya balansı məlumatlarının yığılması və ümumiləşdirilməsi işləri aparılmışdır. Maliyyə Nazirliyinin, maliyyə sektorunun, Dövlət Statistika Komitəsinin, Milli Depozit Mərkəzinin, neft-qaz sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların məlumatları əsasında icmal xarici borc statistikası və beynəlxalq investisiya balansı formalaşdırılmışdır. Dövlət və dövlət zəmanətli kreditlər, dövlət və korporativ qiymətli kağızlar, debitor və kreditor borclara dair göstəriciləri də özündə əks etdirən icmal xarici borc və beynəlxalq investisiya balansı statistikası tərtib edilmişdir.

Dövlət Statistika Komitəsinin qeyri-dövlət sektoru üzrə xarici borc və beynəlxalq investisiyalara dair məlumatlarının Mərkəzi Banka təqdim olunan əlaqəli məlumatlar (tədiyə balansı və rəqəmsal balans məlumatları) ilə çarpaz yoxlanılması aparılmışdır. İcmal xarici borc hesabatında institusional sektor bölgüsü üzrə maliyyə və qeyri-maliyyə sektorları ayrıca göstərilmişdir. Maliyyə sektoru üzrə texniki ehtiyatlar və ticarət kreditləri və avanslar icmal xarici borc hesabatı çərçivəsində qiymətləndirilmişdir. Milli Depozit Mərkəzi tərəfindən təqdim edilmiş kapitalda iştirakı təmin edən və borc qiymətli kağızları barədə məlumatlar, bankların rəqəmsal balans (hesablar üzrə aktiv və öhdəliklərin qalıqlarının qeyri-rezident alt təsnifatlara görə) məlumatları əsasında bank sektorunun xarici borc statistikası və beynəlxalq investisiya balansı göstəriciləri, həmçinin xaricə yönəldilmiş və xaricdən cəlb edilmiş birbaşa xarici investisiyalar üzrə məlumatlar dəqiqləşdirilmişdir.

İcmal xarici borc və beynəlxalq investisiya balansının məlumatlarının yığılması və ümumiləşdirilməsi prosesinin avtomatlaşdırılması, ilkin məlumatların çarpaz yoxlanılması üzrə təkmilləşdirilməsi işləri davam etdirilmişdir. Həmçinin, maliyyə (banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, sığorta və investisiya şirkətləri) və neft-qaz sektorlarında fəaliyyət göstərən respondent təşkilatlara “Xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”-ına uyğun olaraq lazımi metodoloji dəstək göstərilmişdir.

## 2.6. Maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlılığının təmin edilməsi, maliyyə bazarlarında tənzimləmə və nəzarətin, o cümlədən makroprudensial tənzimləmə və nəzarətin həyata keçirilməsi

**2.6.1. Bank sektoru**. 2025-ci il ərzində mürəkkəb geosiyasi proseslərin yaratdığı qeyri-müəyyənliklər fonunda bank sektoru sabit fəaliyyətini davam etdirmişdir. Bank sektorunun kapital və likvidlik göstəriciləri normativləri əhəmiyyətli üstələmiş, sektorun mənfəətlə fəaliyyəti davam etmişdir. Makroiqtisadi və maliyyə sabitliyi hədəflərinə xələl gətirmədən kredit portfelinin artımı iqtisadi fəallığa töhfə vermişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən təsdiq edilmiş “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” çərçivəsində müəyyən edilmiş hədəflərə uyğun olaraq və Dünya Bankı ilə birgə həyata keçirilən “Maliyyə sektorunun modernizasiyası layihəsi” çərçivəsində banklara risk əsaslı nəzarətin həyata keçirilməsi üzrə nəzərdə tutulmuş təşəbbüslər uğurla icra edilmişdir. Belə ki, 2024-cü ildə təsdiq edilmiş “Risk əsaslı nəzarətin tətbiqi üzrə yeni Siyasət Konsepsiyası” (Konsepsiya) əsasında formalaşdırılmış ARAS (Azerbaijan Risk Assessment System - Azərbaycan Risklərin Qiymətləndirilməsi Sistemi) adlandırılan risk əsaslı nəzarət yanaşmasının tətbiqi məqsədilə “Azərbaycan Respublikası Mərkəzi Bankının banklara risk əsaslı nəzarət üzrə təlimatı” hazırlanmışdır. Qeyd edilən təlimat xarici ölkələrin bank nəzarəti və tənzimləmə qurumlarının təcrübəsi nəzərə alınmaqla formalaşdırılmış, habelə xarici nüfuzlu məsləhət şirkətinin (Oliver Wyman) dəstəyi ilə təkmilləşdirilərək pilot olaraq yoxlanışdan keçirilmişdir. Təlimat 2025-ci ilin dekabr ayında Konsepsiya çərçivəsində yaradılmış Mərkəzi Bankın Nəzarət Komitəsi tərəfindən təsdiq edilmişdir.

2025-ci il ərzində nəzarət çərçivəsində bank sektoru üzrə trendlər izlənilmiş, bankların maliyyə vəziyyəti qiymətləndirilmiş və bank sektorunun maliyyə dayanıqlığı diqqətdə saxlanılmışdır.

31.12.2025-ci il tarixinə ölkədə 22 bank (o cümlədən 2 dövlət bankı) fəaliyyət göstərmişdir. Fəaliyyətdə olan banklardan 9 bankın kapitalının strukturunda xarici kapital iştirak edir. Bankların xidmət şəbəkəsi 502 filial, 87 şöbə (mübadilə şöbələri daxil olmaqla), 3 486 ATM, habelə 27 389 işçi vasitəsilə təmin edilir.

2025-ci ildə bank sektorunun cəmi aktivləri 7.7% (4.1 mlrd. manat) artaraq 57.1 mlrd. manata çatmışdır. Bankların kredit portfeli müvafiq dövrdə 9.4% (2.6 mlrd. manat) artaraq 30.1 mlrd. manata çatmışdır. Bankların istehlak portfeli 10.8%, ipoteka portfeli 8.4%, biznes portfeli 8.9% artmışdır. Hesabat ilinin sonuna biznes kreditləri cəmi kredit portfelinin 53.6%-ni təşkil etmişdir.

2025-ci ildə bank sektorunun cəmi öhdəlikləri 7.2% (3.4 mlrd. manat) artaraq 49.7 mlrd. manata çatmışdır. Depozitlər cəmi öhdəliklərin 77%-i həcmindədir ki, bunun da 16.3 mlrd. manatı əhalinin (sahibkarlıqla məşğul olan fiziki şəxslər istisna olmaqla) əmanətləridir. İl ərzində əhalinin əmanətləri 14.2%, o cümlədən, müddətli əmanətlər 19.9% (1.7 mlrd manat) artaraq 10.3 mlrd. manat təşkil etmişdir. Unikal müddətli əmanətçi sayı cari il ərzində 29% və ya 43 615 nəfər artaraq 194 134 nəfər təşkil etmişdir.

Bank sektorunun öhdəliklərində xarici borcun payı aşağı olaraq qalmaqdadır. 31.12.2025-ci il tarixinə xarici borc 1.2 mlrd. ABŞ dolları olmaqla bankların cəmi öhdəliklərinin 4%-ni təşkil etmişdir.

Depozit və kredit portfeli üzrə dollarlaşma meylləri nəzarətdə saxlanılmışdır. 2025-ci ilin sonuna dollarlaşma əhalinin əmanətləri üzrə 31.5%, hüquqi şəxslərin depozitləri (maliyyə sektorunun depozitləri istisna olmaqla) üzrə 38.7%, kredit portfeli üzrə isə 14.2% təşkil etmişdir.

2025-ci ilin sonuna bank sektorunun likvid aktivləri 12.9 mlrd. manat olmaqla cəmi aktivlərin 22.6%-ni təşkil etmişdir. Sektorun ani likvidlik əmsalı 54% olmaqla minimum tələbi (min. 30%) 1.8 dəfə üstələyir. Bank sektoru üzrə məcmu likvidliyin örtülmə əmsalı 154.5% (minimum tələb 100%), milli valyuta üzrə isə 127% olmaqla, requlyativ tələbi (sistem əhəmiyyətli banklar üçün minimum tələb 65%, digər banklar üçün 55%) əhəmiyyətli dərəcədə üstələmişdir.

Bank sektorunun mənfəətlə fəaliyyəti davam etmişdir. 2025-ci il ərzində banklar 1.2 mlrd. manat xalis mənfəət, 1.9 mlrd. manat məbləğində əməliyyat mənfəəti əldə etmişlər.

Hesabat ilində bank sektorunun məcmu kapitalı 10.3% (0.6 mlrd. manat) artaraq 6.8 mlrd. manata çatmışdır. Bank sektorunun kapital adekvatlığı 17.6% olmaqla minimum requlyativ tələbi (sistem əhəmiyyətli banklar üçün minimum tələb 12.5%, digər banklar üçün 10.5%) əhəmiyyətli üstələmişdir.

Azərbaycan Kredit Bürosuna (Büro) müraciətlərdə aktivlik davam etmişdir. 2025-ci il ərzində Büroya daxil olan ümumi sorğu sayı 205.1 mln. ədəd (o cümlədən toplu sorğu sayı 180 mln. ədəd), skorinq sorğularının sayı isə 128.1 mln. ədəd (o cümlədən toplu skor sayı 124.7 mln. ədəd) olmuşdur.

Bank sektoru üzrə tənzimləmə və nəzarət çərçivəsinin modernizasiyası Mərkəzi Bank tərəfindən daim əsas strateji prioritetlər sırasında öz əksini tapır. Hesabat ili ərzində bu işlər çərçivəsində bank sektorunda prudensial tənzimləmə və nəzarət çərçivəsinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üzrə işlər davam etdirilmişdir.

Banklar tərəfindən nəzarət orqanına təqdim edilən dövri prudensial hesabatların əhatəsini genişləndirən, habelə hesabatların natamam və ya gecikmə ilə təqdim edilməsinə görə banklara və/və ya müvafiq məsul şəxslərə sanksiyalarn tətbiqini tənzimləyən requlyativ çərçivə formalaşmışdır. Banklarda əməliyyat riskləri üzrə idarəetmə sisteminə, əməliyyat risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və monitorinqinə, o cümlədən əməliyyat risk hadisələri nəticəsində bankın qarşılaşdığı zərərin hesablanmasına, habelə əməliyyat risk hadisələri barədə məlumat bazasının formalaşdırılması və hesabatlığa dair tələbləri müəyyən edən qaydalar təsdiq edilib və tətbiqinə başlanılmışdır.

Sistem əhəmiyyətli bankların müəyyən olunması üzrə yeni meyarlar qəbul edilmişdir. Beynəlxalq standartlara əsaslanan yeni yanaşmada tətbiq edilən indikatorlar və onların xüsusi çəkiləri bankların fəaliyyətinin sistem əhəmiyyətlilik baxımından ölkənin maliyyə sisteminə və iqtisadiyyatına təsirlərini daha dəqiq qiymətləndirməyə şərait yaradır. Bu yanaşma sistem risklərinin daha effektiv mitiqasiyasına, maliyyə dayanıqlığının güclənməsinə müsbət töhfə verəcəkdir.

İqtisadi artım dövrlərində (müsbət biznes tsikli) iqtisadi aktivliyin, əmlak bazarında qiymətlərin və banklarda gəlirliyin artımı fonunda kredit portfelinin artım templərini tənzimləmək və sonrakı dövrlərdə sektorun itkiləri absorbsiya etmək məqsədini daşıyan kontr-tsiklik kapital buferinin tətbiqinə başlanılmışdır. 2025-ci ilin martın 1-dən bankların I dərəcəli kapital və məcmu kapital adekvatlığı əmsalları 0.5% həddində artırılıb. Sistem əhəmiyyətli banklar üçün məcmu kapital adekvatlığı əmsalı üzrə minimal tələb 12%-dən 12.5%-dək, I dərəcəli kapitalın adekvatlığı əmsalı isə 6%-dən 6.5%-dək artırılıb. Digər banklar üçün bu normativlər müvafiq olaraq 10%-dən 10.5%-dək və 5%-dən 5.5%-dək qaldırılıb.

Banklarda risklərin idarə edilməsi üzrə requlyativ çərçivənin gücləndirilməsi istiqamətində işlər davam etdirilib. Belə ki, hesabat ili ərzində banklarda əməliyyat və bazar risklərinin idarə edilməsinə dair vahid tənzimləyici çərçivələr formalaşdırılmışdır. Əməliyyat riski üzrə yeni tələblər risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və monitorinqi, əməliyyat risk hadisələri üzrə zərərlərin hesablanması, daxili və xarici hesabatlılıq, həmçinin əməliyyat riski hadisələri üzrə məlumat bazasının yaradılmasını əhatə edir. Bu yanaşma bankların əməliyyat risklərindən irəli gələn zərərləri daha dəqiq qiymətləndirməsinə imkan verir. Bazar riskinin idarə edilməsi üzrə tələblər bu riskə dair Bazel standartlarına uyğun

formalaşmışdır. Müvafiq qaydalarda bazar risklərinin idarə edilməsi sistemi, siyasəti və qaydaları üzrə tələblər, bazar riskinin ayrı-ayrı növləri (faiz dərəcəsi, valyuta, kapital, əmtəə və bazar likvidliyi riskləri) üzrə risklərin ölçülməsi metodları, monitorinq və hesabatlıq nəzərdə tutulur. Qaydaların qəbul edilməsi banklarda bazar riski üzrə vahid çərçivənin yaradılmasına və bazar riski mədəniyyətinin formalaşdırılmasına xidmət edəcəkdir.

Banklarda likvidlik riskinin idarə edilməsi üzrə requlyativ çərçivədə likvid vəsaitlərin milli və xarici valyuta arasında bölgüsünün daha optimal proqnozlaşdırılmasına, bankların likvid mövqeyinin daha dayanıqlı şəkildə formalaşdırılmasına yönəldilmiş dəyişikliklər edilmişdir. Əsas yenilik bankların likvidlik mövqeyinin qiymətləndirilməsi üçün tətbiq edilən likvidliyin örtülmə əmsalının (LCR) həm məcmu, həm də milli valyuta üzrə tətbiqidir. 01.08.2025-ci il tarixindən etibarən sistem əhəmiyyətli banklar milli valyuta üzrə LCR əmsalını 50%-dən başlamaqla 01.06.2027-ci il tarixinədək, bütün digər banklar isə 40%-dən başlamaqla 01.12.2027-ci il tarixinədək mərhələli qaydaya 100%-ə çatdırmalıdır. Paralel olaraq, dəyişikliklər bankların yüksək keyfiyyətli likvid aktiv kimi təsnifləşdirə biləcəkləri aktivlərin dairəsini də genişləndirmişdir. Həmçinin, Xalis Sabit Maliyyələşmə Nisbətinin (NSFR) tətbiqi üçün tələbləri müəyyən edən tənzimləyici paket və hesabat formaları hazırlanmışdır. Bu yeni tələb uzunmüddətli sabit maliyyələşmənin təşviqinə və likvidlik mövqeyinin bir illik dövr üzrə planlaşdırılmasına xidmət edəcəkdir. Bu tələbin tətbiqi 2026-cı ildə nəzərdə tutulur.

Bazel III standartlarına uyğun kapital strukturu və yeni kapital buferlərinin tətbiqi üçün tənzimləyici çərçivə formalaşdırılmış, müvafiq requlyativ qaydalara dəyişikliklər təsdiq edilmişdir. Dəyişikliklər Bazel III standartlarına uyğun bank kapitalının strukturu, kapital adekvatlığı əmsalları, kapital buferləri və bir sıra digər tələblər və tənzimləmələri əhatə edir. Dəyişikliklər əsasən, yeni kapital buferlərinin tətbiqi bankların mümkün itkilərə qarşı dayanıqlılığını artırmaqla risklərin daha düzgün qiymətləndirilməsinə və bank kapitalının keyfiyyətinin yüksəldilməsinə, habelə iqtisadiyyatın dayanıqlı maliyyələşdirilməsi proseslərinin əlavə dəstəklənməsinə şərait yaradacaqdır. Yeni kapital strukturuna adaptasiya, bankdaxili qayda və prosedurlarının yeni requlyativ tələblərə uyğunlaşdırılması, eləcə də sektorda zəruri təlimlərin keçirilməsi və yeni yanaşmaların prudensial hesabatlığa inteqrasiyası üçün banklara 1 illik keçid dövrü verilib. Belə ki, yeni tələblərə 01.01.2027-ci il tarixindən etibarən tam riayət olunması banklardan tələb ediləcəkdir.

Banklarda stress-test proseslərini, təşkilati strukturu, stress-testlərin əhatə dairəsi və məqsədlərini, tətbiq olunan yanaşmaları və nəticələrin təhlilini müəyyən edən tənzimləyici çərçivə formalaşdırılmış, sektorla geniş müzakirə edilmiş və hüquqi ekspertizadan keçirilməsindən sonra requlyativ sənədin ən qısa müddət ərzində təsdiqi və tətbiqinə başlanması nəzərdə tutulur.

Bank aktivlərinin keyfiyyət üzrə təsnifləşdirilməsi və onlar üzrə ehtiyatların yaradılmasına dair prudensial tələblərin Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS 9 standartları) ilə sinxronlaşdırılması istiqamətində beynəlxalq məsləhətçilərlə birlikdə IFRS 9-un tətbiqi üzrə banklar üçün Metodoloji Rəhbərlik və hesabat formaları hazırlanmış, seçilmiş banklarda sınaqlar aparılmışdır. 2026-cı ildən etibarən banklarda aktivlərin təsnifləşdirilməsi və ehtiyatların yaradılması həm IFRS 9, həm də mövcud prudensial tələblər əsasında paralel aparılacaqdır. Sistem əhəmiyyətli banklar aylıq, digər banklar üçün isə rüblük və yarımillik dövriliklə IFRS 9 hesabatları Mərkəzi Banka təqdim edəcəklər.

İstehlak kreditləri üzrə tənzimləmə çərçivəsi gücləndirilmişdir. Əhalinin izafi borclanmasının qarşısının alınması məqsədilə maksimal borclanma limitləri müəyyən

edilmişdir. Borcalana ayrılan kredit xətlərinin məbləği onun vergidən sonrakı xalis gəlirinin maksimum 5 misli ilə məhdudlaşdırılır. Qəbul edilmiş yeni requlyativ tələblərə əsasən hər hansı bankda borcalanın xalis gəlirinin 5 mislindən artıq olan istehlak krediti xətlərinin məcmu məbləği həmin bankın I dərəcəli kapitalının 1%-dən çox ola bilməz. Bu tələblər borcalanların real ödəmə qabiliyyətinin nəzərə alınmasına və bankların riskləri daha erkən mərhələdə müəyyən edərək minimallaşdırmasına imkan yaradır.

Risk-əsaslı nəzarət yanaşmasına keçid prosesinə başlanılmışdır. 2025-ci ildə qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq Mərkəzi Bankın Risk-Əsaslı Nəzarət Konsepsiyası təsdiq edilmiş, bankın fəaliyyətində bütün əsas risklərin və risk idarəetmə proseslərinin qiymətləndirilməsini əhatə edən ARAS Nəzarət Təlimatı hazırlanmış, pilot banklarda sınaqdan keçirilmişdir. 2026-cı ildən başlayaraq bütün banklarda nəzarət prosesləri ARAS Risk-Əsaslı Nəzarət Təlimatına uyğun aparılacaq. Bu yanaşma nəzarət subyektlərinin risk profilinin daha dəqiq müəyyən edilməsinə, erkən və bankın risk profilinə uyğun nəzarət tədbirlərin tətbiqinə, habelə nəzarət resurslarının risk profilinə uyğun daha səmərəli bölüşdürülməsinə şərait yaradır.

Bank sektorunun vacib tərkib hissəsi olan bank-olmayan kredit təşkilatlarının (BOKT) tənzimlənməsi üzrə hüquqi-normativ bazanın təkmilləşdirilməsi üzrə işlər davam etdirilmişdir. Mərkəzi Bankın "Mikromaliyyə Modeli üzrə Strateji Çərçivə" sənədinə uyğun olaraq BOKT-nın inkişafı istiqamətində sahəvi qanunvericiliyə dəyişikliklər qiymətləndirilir və mərhələli tətbiqi planlaşdırılır. BOKT-lərin institusional gücləndirilməsi məqsədilə kənar auditin aparılmasına dair minimum tələbləri müəyyən edən qaydalar təsdiq edilmişdir. Qayda auditorların seçilməsi meyarlarını, yoxlama dairəsini və daxili audit funksiyaları ilə əlaqələndirmə tələblərini əhatə edir. Eyni zamanda, BOKT-lər üçün korporativ idarəetmə standartlarının layihəsi hazırlanmış və sektorla müzakirə edilmiş, Mərkəzi Bank tərəfindən təsdiqi gözlənilir.

**2.6.2. Sığorta sektoru.** *2025-ci ilin sonuna sığorta sektorunun fəaliyyəti 15 sığortaçı, 1 təkrarsığortaçı, 1 müştərək sığortaçı, 22 sığorta brokeri və 468 sığorta agenti vasitəsilə təmin edilmişdir. Son illərdə sığorta bazarı sabit və əhəmiyyətli böyümə dinamikası nümayiş etdirir. Belə ki, 2025-ci il ərzində sığorta haqları 1.5 mlrd. manat, sığorta ödənişləri isə 920 mln. manat təşkil etmişdir. Sığorta haqları ötən illə müqayisədə 11%, sığorta ödənişləri isə 22% artmışdır. Sığorta haqlarının 76%-i könüllü, 24%-i isə icbari sığorta növlərinin payına düşür. Eyni zamanda, sığorta haqlarının 57%-ni həyat, 43%-ni isə qeyri-həyat sığorta sahəsi üzrə yığımlar təşkil etmişdir.*

Hesabat ilində sığorta sektoru üzrə beynəlxalq qanunvericiliyə və sığorta prinsiplərinə uyğun olaraq hazırlanan bir sıra normativ-hüquqi sənədlər təsdiq edilmişdir.

2025-ci il ərzində sığorta sahəsində risk əsaslı tənzimləmə və nəzarətə keçid ilə bağlı layihənin icrası davam etdirilmiş, bu istiqamətdə sığortaçılar tərəfindən məlumatların ictimaiyyətə açıqlanması qaydası Mərkəzi Bankın İdarə Heyətinin 19.05.2025-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Bu Qayda sığortaçının fəaliyyəti, ödəmə qabiliyyəti, maliyyə vəziyyəti və sığortalılara münasibətdə bazar davranışları üzrə ictimaiyyət qarşısında hesabatlılığı və bazar intizamını, o cümlədən istehlakçıların sığortaçı seçimi, həmçinin bazar iştirakçılarının (mövcud və potensial investorlar, kreditorlar və s.) sığortaçıya investisiya üzrə qərar vermə prosesinə dəstəyi artırmaq məqsədlərini daşıyır.

Həmçinin, sığortaçıların fəaliyyətinin "Solvency II" beynəlxalq standartlarına uyğunlaşdırılması istiqamətində tədbirlərin icrası davam etdirilmişdir. Belə ki, sığortaçıların risk əsaslı tələb olunan kapitalının hesablanması üzrə metodologiyanın hazırlanması, risk

əsaslı nəzarətin metodoloji çərçivəsinin müəyyənləşdirilməsi, o cümlədən sığortaçılar tərəfindən təqdim olunan hesabatlığın beynəlxalq standartlara uyğunlaşdırılması, təkrarsığortaya xaricdən risklərin qəbulu zamanı kəmiyyət və keyfiyyət tələblərinin formalaşdırılması istiqaməti üzrə işlər aparılmışdır.

İcbari sığorta növlərinin və həmin növlər üzrə sığorta xidmətlərinin daha keyfiyyətli və əlçatan olmasının təmin edilməsi məqsədilə işlər davam etdirilmişdir. Bu istiqamətdə Mərkəzi Bankın İdarə Heyətinin 17.06.2025-ci il tarixli qərarları ilə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növü üzrə sərhəd sığortasının onlayn satış imkanlarının yaradılması təmin olunmuş, həmçinin sərhəd sığortası və Yaşıl Kart sığortasına münasibətdə sığorta haqlarının hesablanması, eləcə də bu icbari növ üzrə şəhadətnamənin forma və məzmununu müəyyən edən qaydalarda düzəlişlər edilmişdir

Eyni zamanda, daşınmaz əmlakın icbari sığorta növü üzrə sığorta məbləğlərinin adekvat müəyyən olunması, katastrofik risklərə qarşı təminatların beynəlxalq təcrübəyə uyğun şəkildə formalaşdırılması və bu istiqamətdə katastrofik risklərin təsirinin azaldılması üçün sığortanın effektiv müdafiə mexanizmi kimi rolunun gücləndirilməsi, sığorta hadisəsi nəticəsində zərərlərin adekvat və çevik şəkildə qiymətləndirilməsi və tənzimlənməsi, eləcə də sığorta əhatəliliyinin artırılması və digər mühüm istiqamətləri əhatə edən qanunvericiliyə dəyişiklik layihəsi aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla müvafiq qaydada təsdiq edilməsi üçün aidiyyəti icra hakimiyyəti orqanına göndərilmişdir. Həmçinin, zəlzələ riskinə münasibətdə Azərbaycan üçün katastrofik risklərin modelləşdirilməsi layihəsi tamamlanmışdır. Bu layihə nəticəsində sığortaçılar qəbul etdikləri risklərin elmi-texniki vasitələrlə modelləşdirilməsi hesabına düzgün ölçə və buna uyğun olaraq adekvat təkrarsığorta təminatlarını əldə etməklə risklərini daha effektiv idarə etmək imkanlarına sahib olacaqlar.

Bununla yanaşı, könüllü sığorta növləri üzrə də təkmilləşmə işləri davam etdirilmişdir. Bu istiqamətdə beynəlxalq sığorta prinsiplərinə əsaslanan, sığortalı hüquqlarının qorunmasına, dolayısıyla sığorta xidmətlərinə inamı daha da artıracaq sığorta qaydalarının formalaşdırılması ilə əlaqədar tədbirlər görülmüşdür. Bu qaydalar sığorta bazarının genişlənməsi və məhsul müxtəlifliyinin artması prosesləri fonunda sığorta münasibətləri üzrə ümumi şərtlərin hüquqi bazasını müəyyən etməklə yanaşı, sığortaçılara bu çərçivə daxilində xüsusi şərtlər formalaşdırmağa imkan verəcəkdir. Həmçinin, həyatın yaşam sığortası növünün təkmilləşdirilməsi istiqamətində konsepsiya və qanunvericilik layihələri hazırlanmışdır. Ölkədə aqrar sığorta sisteminin qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq institusional strukturunun təkmilləşdirilməsi, risklərin dayanıqlı idarə edilməsi və dövlət dəstəyinin səmərəliliyinin artırılması məqsədilə yeni konsepsiya hazırlanmış və aidiyyəti qanunvericilik aktlarına düzəliş layihəsi hazırlanmışdır.

Sığorta bazarında vasitəçilik fəaliyyətinin davamlı inkişafının təmin edilməsi və institusional baxımdan möhkəmləndirilməsi, sığorta əhatəliliyinin genişləndirilməsi və maliyyə inklüzivliyinin artırılması, sığorta sektoruna olan ictimai etimadın gücləndirilməsi, istehlakçı hüquqlarının müdafiəsinin gücləndirilməsi, sığorta vasitəçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, bilik və bacarıqlarının davamlı inkişafı üçün effektiv mexanizmlərin formalaşdırılması məqsədilə qabaqcıl beynəlxalq təcrübə və standartlar nəzərə alınmaqla qanunvericiliyə dəyişiklik layihəsi hazırlanmışdır. Həmçinin, hesabat ili ərzində, ölkədə fəaliyyət göstərən sığorta vasitəçilərinin fəaliyyətinin stimullaşdırılması, bu sahədə mövcud olan problemlərin, mümkün həll yollarının və qarşıda duran inkişaf

istiqamətlərinin müzakirəsi məqsədilə "Sığorta Agentləri və Vasitəçiləri Forumu" keçirilmişdir.

Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edən sığorta xidmətlərinin rəqəmsallaşması ilə əlaqədar tədbirlər, həmçinin müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun elektron-informasiya sistemi ilə səlahiyyətli dövlət orqanlarının sistemləri arasında inteqrasiyalar davam etdirilmişdir. Sektorun rəqəmsal transformasiyasını dəstəkləmək, sığortaçılarda idarəetməni müasir standartlara uyğunlaşdırmaq, o cümlədən sektorun maliyyə dayanıqlığını gücləndirmək məqsədilə "Türk Dövlətləri Insurtech Zirvəsi" keçirilmişdir.

Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosu ilə birlikdə əhali və biznes subyektlərinin sığorta və risklər haqqında maarifləndirilməsi, o cümlədən sığorta sektorunun kadr potensialının genişləndirilməsi istiqamətində fəaliyyətlər həyata keçirilmişdir.

Bundan əlavə, türk dünyası sığorta sektorunda requlyativ yanaşmaların müzakirəsi, qarşıda duran hədəflər və perspektivlərin müəyyən edilməsi və Türk Dünyası Sığorta Birliyinin Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə əsaslanaraq yenidən formalaşdırılması məqsədilə Şuşa şəhərində Türk Dünyası Sığorta Birliyinin birinci Assambleyası baş tutmuşdur.

**2.6.3. Kapital bazarı.** *Mərkəzi Bank tərəfindən qiymətli kağızlar bazarında tənzimləmə və nəzarət proseslərinin səmərəliliyinin artırılması, kapital bazarının hüquqi çərçivəsinin beynəlxalq standartlara uyğunlaşdırılması, əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi istiqamətində tədbirlər davam etdirilmişdir.*

2025-ci il ərzində "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda kapital bazarında dayanıqlı infrastrukturun yaradılması, bazara çıxış imkanlarının genişləndirilməsi, inam və etimadın təmin edilməsi, investisiya alətlərinin çeşidinin artırılması və nəzarət fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərində nəzərdə tutulan tədbirlərin icrası təmin edilmişdir.

Hesabat ilində xarici məsləhətçi şirkət (Deloitte) cəlb olunmaqla qiymətli kağızlar bazarı sahəsində qanunvericiliyin diaqnostikası yekunlaşmışdır. Hazırda seçilmiş bençmark ölkələrin qanunvericiliyi də nəzərə alınmaqla hüquqi çərçivənin təkmilləşdirilməsi istiqamətində qanunvericiliyə dəyişiklik layihəsi hazırlanmaqdadır.

Sekyuritizasiya fəaliyyəti üzrə hüquqi çərçivənin formalaşdırılması məqsədilə "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklər layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.

Vençur kapital sahəsi üzrə hüquqi çərçivənin yaradılması məqsədilə qanunvericiliyə dəyişiklik layihəsi hazırlanmış və aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir. Bundan əlavə, kraudfandinq fəaliyyəti üzrə hüquqi çərçivənin yaradılması məqsədilə layihə hazırlanmış və hazırda bu layihənin Mərkəzi Bank daxilində hüquqi ekspertizası aparılır.

"Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların investisiya qiymətli kağızlarının emissiyası, kütləvi təklifi və tədavülü Qaydası"nın təkmilləşdirilmiş yeni redaksiyası qüvvəyə minmişdir. Yeni qaydalar müvafiq beynəlxalq təşkilatlar tərəfindən buraxılan istiqrazların emissiyası üzrə tələblərin sadələşdirilməsini təmin etməklə onların yerli istiqraz bazarında iştirakının stimullaşdırılmasına xidmət edir. Görülən tədbirlərin nəticəsi kimi 2025-ci ilin oktyabr ayında beynəlxalq maliyyə təşkilatı olan Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən ilk dəfə yerli bazarda və manatda istiqraz emissiyası baş tutmuşdur. Yerli kapital bazarında buraxılan ilk dəyişkən faizli bu istiqrazların

kupon faiz dərəcəsi Mərkəzi Bankın AZIR indeksi (Banklararası Təminatsız Pul Bazarında İstinad Faiz Dərəcəsi) əsasında müəyyən edilir. AZIR indeksinin etibarlı istinad faizi kimi istiqraz buraxılışında istifadəsi gələcəkdə daha mürəkkəb maliyyə alətlərinin tətbiqi üçün mühüm zəmin yaradacaqdır. Ümumi məbləği 50 milyon manat (müddəti 1 il) olan istiqrazların yerləşdirilməsi zamanı 12 investor tərəfindən 55.2 milyon manat məbləğində sifariş təqdim edilmiş və tələb təklifi üstələmişdir.

Hesabat ilində kapital bazarının əməliyyat infrastrukturunun rəqəmsallaşdırılması istiqamətində işlər davam etdirilmişdir. Belə ki, mobil tətbiq vasitəsilə SOCAR, Azərbaycan Dəmir Yolları və Bank of Baku istiqrazlarına abunə yazılışı və yerləşdirmə prosesi keçirilmişdir. Mərhələli şəkildə digər maliyyə alətlərinin də rəqəmsal həllər vasitəsilə investorlara təklif edilməsi nəzərdə tutulur.

Emitentlərin və investorların kapital bazarına çıxış imkanlarının artırılması istiqamətində iqtisadi və fiskal stimulların müəyyən edilməsi məqsədilə Mərkəzi Bank tərəfindən kapital bazarında stimullaşdırıcı vergi rejiminin təmin edilməsi üzrə işlər davam etdirilmişdir. 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad edilmişdir. Eyni zamanda, istiqrazlar üzrə faiz vergisinin hesablanması beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilmişdir. Dəyişikliklərin əsas məqsədi qiymətli kağızların kütləvi təklif üsulu ilə fond birjasında yerləşdirilməsinin stimullaşdırılması və tənzimlənən bazarda ticarət edilən qiymətli kağızlara marağın artırılmasıdır.

Kapital bazarında investorların sığortalanması mexanizminin yaradılması məqsədilə Mərkəzi Bank və Əmanətlərin Sığortalanması Fondu tərəfindən “Əmanətlərin Sığortalanması haqqında” mövcud Qanunun əsasında “Əmanətlərin və investisiyaların sığortalanması haqqında” Qanuna dəyişiklik layihəsi hazırlanmış, rəylər nəzərə alınmaqla Layihənin təkmilləşdirilmiş yeni redaksiyasının hökumətə təqdim edilməsi nəzərdə tutulur. Qeyd edək ki, qiymətli kağızlar bazarında investorların sığortalanması mexanizminin məqsədi ödəmə qabiliyyətini itirmiş investisiya şirkətinin müştərilərinə sığortanın ödənilməsi və bu üsulla kapital bazarında iştirak edən investorların hüquqlarının müdafiəsinin artırılması, investorların kapital bazarında iştirakının təşviq edilməsi və ümumilikdə maliyyə sisteminin dayanıqlığının artırılmasıdır.

Kapital bazarında məlumatlılıq və maarifləndirmə səviyyəsinin artırılması məqsədilə tədbirlərin icrası davam etdirilmişdir (regionlarda kapital bazarlarının inkişafına yönəlmiş seminarların keçirilməsi, ali təhsil müəssisələrində təlimlərin keçirilməsi və s).

Hesabat ilində qiymətli kağızlar bazarında ticarət dövriyyəsinin ümumi həcmi 64 448 mln. manat olmuşdur. Bunun 63 824 mln. manatı (99%) Bakı Fond Birjasının (BFB), 625 mln. manatı (1%) isə birjadan kənar bazarın payına düşür.

2025-ci il ərzində BFB-də dövlət qiymətli kağızlarının ticarət dövriyyəsi ötən ilə nəzərən 36% artaraq 10 682 mln. manat, korporativ qiymətli kağızların ticarət dövriyyəsi isə 6% artaraq 2 508 mln. manat təşkil etmişdir. Hesabat ili ərzində BFB-də korporativ istiqrazların ticarət dövriyyəsi 9% artaraq 2 485 mln. manata, dövlət istiqrazlarının ticarət dövriyyəsi isə 58% artaraq 9 288 mln. manata yüksəlmişdir. Dövlət və korporativ istiqrazlarının fond birjasında yerləşdirilməsi üzrə də müsbət dinamika davam etmişdir (müvafiq olaraq 1% və 8% artım). Tədavüldə olan dövlət istiqrazlarının həcmi ötən ilə müqayisədə 4% azalaraq 8 975 mln. manat təşkil etmişdir. Repo/əks əməliyyatları üzrə ticarət dövriyyəsində hesabat ili ərzində 17% azalma müşahidə edilsə də, repo predmeti

olaraq dövlət istiqrazlarının həcmində bu dövrdə 54% artım müşahidə edilmişdir. Repo əməliyyatları üzrə azalmanın əsas səbəbi Mərkəzi Bankın açıq bazar əməliyyatları üzrə apardığı siyasətlə bağlı olmuşdur.

2025-ci il ərzində dövlət qeydiyyatına alınmış investisiya qiymətli kağızlarının həcmi 21.3% artaraq hesabat ilinin sonuna 18.4 mlrd. manat təşkil etmişdir. Bunun 1 379 mln. manatı (7%) korporativ istiqrazların, 2 789 mln. manatı (15%) səhmlərin, 2 533 mln. manatı (14%) Mərkəzi Bankın qısamüddətli notlarının, 11 678 mln. manatı (64%) isə dövlət istiqrazlarının payına düşür. Eyni zamanda, korporativ qiymətli kağızların kütləvi təklifi üzrə ümumi məbləği 870.6 mln. manat olan 42 emissiya prospekti təsdiq edilmişdir.

**2.6.4. ƏL/TMM.** Maliyyə sisteminin şəffaflığının, etibarlılığının, ölkənin beynəlxalq maliyyə sistemində iştirakının təmin edilməsi, maliyyə institutlarına müştəri etimadının artırılması, hüquqi və maliyyə risklərinin azaldılması və risklərin effektiv idarə edilməsinə töhfə vermək məqsədilə Mərkəzi Bank tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) tərəfindən 2023-cü ildə həyata keçirilən Azərbaycanın 5-ci raund qarşılıqlı qiymətləndirilməsi zamanı aşkalanmış çatışmazlıqlarla bağlı təsdiq edilmiş "2025-il üzrə qısamüddətli Tədbirlər Planı"na dair rüblük hesabat və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı"na dair 2025-ci il üzrə illik hesabat Koordinasiya Şurasına təqdim edilmişdir. Hər iki tədbirlər planı üzrə Mərkəzi Banka aid tədbirlərin icrası yekunlaşmışdır.

AMB tərəfindən MONEYVAL hesabatında müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə həyata keçirilmiş tədbirlər, o cümlədən qanunvericiliyə edilmiş dəyişikliklər barədə məlumatlar, Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) 14-cü, 16-cı və 26-cı tövsiyələri üzrə reytinqlərin qaldırılması məqsədilə MONEYVAL komitəsinə təqdim edilmişdir. Həyata keçirilmiş tədbirlər müsbət nəticə vermiş, MONEYVAL tərəfindən təkrar qiymətləndirmə aparılaraq tövsiyələrin hər biri "qismən uyğun (PC)" reytinqindən, "əsasən uyğun (LC)" reytinqinə qaldırılmışdır. Beləliklə, Azərbaycanın 1-ci gücləndirilmiş tərəqqi hesabatı (1st Enhanced Follow-up Report) təsdiq edilmişdir.

Mərkəzi Bankın qərarı ilə yeni "Məsafədən hesabların açılması Qaydası" (Qayda) təsdiq edilmişdir. Bu Qayda ilə artıq yalnız bank hesablarının məsafədən açılması deyil, bütün ödəniş hesablarının məsafədən açılması qaydası tənzimlənir. Yeni Qaydada eyniləşdirmə üçün şəkil çəkilişi, video çəkiliş və ya videozəng üsullarından birinin seçilməsinə imkan yaradılmış, mövcud müştərilər tərəfindən yeni hesabın açılması zamanı təkrar eyniləşdirmə tələbi aradan qaldırılmışdır. Eyni zamanda, qanuni nümayəndələr (valideynlər, övladlığa götürən şəxslər və qəyyumlar) vasitəsilə fiziki şəxslərə məsafədən xidmətlərin göstərilməsi imkanı yaradılmış, müqavilələrin gücləndirilmiş müştəri autentifikasiyası üsulu ilə təsdiqlənməsi tələbi aradan qaldırılaraq yalnız gücləndirilmiş elektron imza (ASAN imza, SİMA və s.) ilə təsdiq edilməsi tələbi müəyyən olunmuşdur. Bundan əlavə, müştərilərə məsafədən xidmət imkanlarını məhdudlaşdırmaq və bərpa etmək imkanları verilmişdir.

Hesabat ilində nəzarət funksiyalarının icrası çərçivəsində maliyyə institutlarında ƏL/TMM Qanununun tələblərinə əməl olunmasına dair yoxlamalar aparılmışdır. Bu

yoxlamalar maliyyə sisteminin şəffaflığının təmin olunması, qanunvericiliyə uyğunluğun nəzarətdə saxlanılması və cinayətkarlıq risklərinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

2025-ci il ərzində 3 bank, 9 bank olmayan kredit təşkilatı, 4 ödəniş, 3 elektron pul təşkilatı, 1 valyuta mübadiləsi məntəqəsi, 1 investisiya şirkəti və "Azərpoçt" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsi əsasında 644 000 manat məbləğində cərimə tətbiq edilmişdir. Bu tədbirlər maliyyə sektorunda hüquqi tələblərə əməl olunmasının təmin edilməsi və gələcəkdə analoji pozuntuların qarşısının alınması baxımından önəm daşıyır.

Mərkəzi Bankın ƏL/TMM sahəsində müəyyən etdiyi sahəvi risklər və zəifliklər nəzərə alınaraq hazırlanmış 2025-ci il üzrə təlim planı əsasında, maliyyə institutlarının normativ tələblər və praktikada sui-istifadə olunan sahələr üzrə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə təlimlər keçirilmişdir. Təlimlər banklar və poçt rabitəsinin milli operatorları üçün – daxili nəzarət proqramının tətbiqində mövcud olan çatışmazlıqlar, daşınmaz əmlakdan leqallaşdırılma məqsədilə sui-istifadə, şübhəli hallara dair tipologiyalar, kart əməliyyatları üzrə risklər və nəzarət mexanizmi, habelə maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatları zamanı yaranan risklər, qeyri-bank maliyyə institutları üçün – müştəri uyğunluğu tədbirlərinin tətbiqi, institusional risk qiymətləndirilməsi, ƏL/TMM qanunvericiliyi mövzularında, bütün maliyyə institutları üçün - üçüncü şəxslərə güvənmə mövzusunda olmuşdur.

### 2.7. Ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi, inkişafına dəstək verilməsi

*Ödəniş sistemlərinin sabit və etibarlı fəaliyyətinin təmin edilməsi Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən biri olmuşdur. Qlobal rəqəmsallaşma şəraitində sistemlərin kiber hücumlara qarşı davamlılığının artırılması diqqət mərkəzində saxlanılmışdır.*

Hesabat ilində Milli ödəniş sisteminin əsas komponentləri olan Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZIPS), Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) və Ani Ödənişlər Sistemi (AÖS) vasitəsilə həyata keçirilən ödənişlərin həcmi 840.9 mlrd. manat (ÜDM-in 6.5 misli), ödənişlərin sayı isə 145.2 mln. ədəd olmuşdur.

Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə 2025-ci il ərzində emal olunan əməliyyatların sayı 114.4 mln. ədəd, həcmi isə 8.6 mlrd. manat olmuşdur. Əməliyyatların ümumi həcmi 2024-cü illə müqayisədə 6.6%, o cümlədən nağdsız əməliyyatların həcmi 9.3% artmışdır.

Hesabat ili ərzində 24/7 rejimində fəaliyyət göstərən Ani Ödənişlər Sisteminin (AÖS) əhatə dairəsi və funksionallıqları genişləndirilmişdir. 2025-ci il ərzində AÖS vasitəsilə həyata keçirilən əməliyyatların sayı 2024-cü illə müqayisədə 12.5 dəfə artaraq 10 mln. ədəd, həcmi isə 90.1% artaraq 2.6 mlrd. manat olmuşdur.

2025-ci ilin dekabr ayının sonuna dövriyyədə olan ödəniş kartlarının sayı 22 mln. ədəd, bankomatların sayı 3.6 min ədəd, POS-terminalların sayı isə 184.2 min ədəd təşkil etmişdir. 2025-ci il ərzində ödəniş kartları ilə ölkə daxilində aparılmış nağdsız əməliyyatların həcmi 25.6% artaraq 99.1 mlrd. manat təşkil etmişdir. 2024-cü illə müqayisədə ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 43.4%, həcmi isə 29.8% artmışdır. Ölkə daxilində ödəniş kartları ilə aparılan əməliyyatlarda nağdsız ödənişlərin xüsusi çəkisi 2024-cü illə müqayisədə 3.4 faiz bəndi artaraq 67.6%-ə bərabər olmuşdur. 2024-cü illə

müqayisədə 2025-ci il ərzində internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 12.4%, mobil bankçılıq əməliyyatlarının həcmi isə 14.3% artmışdır.

2025-ci ildə ödəniş xidmətləri üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi, ödəniş xidmətləri təqdim edən təşkilatların fəaliyyətinin lisenziyalaşdırılması və fintexlərin ödəniş bazarına cəlb edilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir. “Azərbaycan Respublikası Mərkəzi Bankının ödəniş sistemləri üzrə Nəzarət Siyasəti” yeni qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla yeni redaksiyada təsdiq edilmiş, “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”ya dəyişikliklər edilmiş, daha ucuz ödəniş həlli olan QR kod vasitəsilə ödəniş əməliyyatlarının aparılmasına dair yeni tələblər əlavə edilmiş, ölkə üzrə vahid AZQR kod standartının tətbiqi tələb kimi müəyyən edilmişdir. “Ödəniş xidməti təchizatçıları arasında hesablaşmaların həyata keçirilməsi Qaydası” yeni redaksiyada təsdiq edilmiş, bank olmayan ödəniş xidməti təchizatçılarının ödəniş sistemlərinə inteqrasiya imkanlarının hüquqi əsasları müəyyən edilmişdir. “Ödəniş təşkilatları və elektron pul təşkilatları tərəfindən fəaliyyətin təşkili və həyata keçirilməsi Qaydası”na edilmiş dəyişikliklərə əsasən, təşkilatların daxili nəzarət funksiyasını həyata keçirən struktur bölmələrinə dair yeni tələblər müəyyən edilmiş, ödəniş xidməti istifadəçilərinin pul vəsaitlərinin uçotu ilə bağlı tələblər, habelə təşkilatın fəaliyyətinə dair hesabatlar, biznes plan və fəaliyyət proqramına dair tələblər təkmilləşdirilmişdir.

Ödəniş xidməti təchizatçılarının fəaliyyətinin lisenziyalaşdırılması çərçivəsində hesabat ili ərzində 3 elektron pul təşkilatı, 2 ödəniş təşkilatı və 1 operatora Mərkəzi Bank tərəfindən müvafiq lisenziyalar verilmişdir.

Rəqəmsal ödənişlərdən istifadənin təşviqi məsələləri diqqət mərkəzində saxlanılmış, aidiyyəti qurumlar ilə birlikdə zəruri tədbirlər həyata keçirilmişdir. Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyasının birgə əməkdaşlığı çərçivəsində turizm xidməti obyektlərində nağdsız ödənişlərin tətbiqinin genişləndirilməsi məqsədilə regionlarda KOB-lara maarifləndirici seminarlar təşkil olunmuşdur.

Mərkəzi Bank tərəfindən maliyyə sektorunun rəqəmsal transformasiyası istiqamətində həyata keçirilən təşəbbüslər çərçivəsində “Açıq bankçılıq” yanaşmasının tətbiqi üzrə mühüm nəticələr əldə olunmuşdur. Hazırda 19 kommersiya bankının və poçt rabitəsinin milli operatoru “Azərpoçt” MMC-nin API-ları Mərkəzi Bankın vahid API şlüzünə inteqrasiya edilmiş, onların 7-si hesab üzrə məlumat xidməti təchizatçısı qismində Açıq Bankçılıq ekosisteminə qoşulmuşdur. Bu mexanizm vətəndaşlara müxtəlif banklarda mövcud hesablarını vahid mühitdə izləmək imkanı yaradır. Bununla yanaşı, ödəniş əməliyyatlarının aparılması üzrə vasitəçilik xidməti (PİS) funksionallığı üzrə texniki spesifikasiya formalaşdırılmış və ilkin olaraq Mərkəzi Bankın daxili strukturları tərəfindən təsdiqlənmişdir. Eyni zamanda, qeyd edilən funksionallıq üzrə Mərkəzi Bank daxilində zəruri texniki infrastruktur qurulmuşdur. Paralel olaraq Açıq Maliyyə konsepsiyasının ilkin çərçivəsi formalaşdırılmışdır.

İnnovativ maliyyə məhsullarının təhlükəsiz şəkildə bazara çıxarılmasını təmin etmək məqsədilə xüsusi tənzimləmə rejimi tətbiq edilmişdir. Rejimin birinci qəbul dövrü çərçivəsində kriptovalyuta sahəsində 4 innovativ məhsul sınaqdan keçirilmiş, ikinci qəbul dövrü üzrə isə ümumilikdə 14 müraciət daxil olmuşdur. 2025-ci ilin III rübündə həyata keçirilmiş monitorinq və qiymətləndirmə tədbirləri nəticəsində 2 layihə üzrə sınaq müddətinin uzadılması, 2 layihə üzrə isə sınaqların yekunlaşdırılması barədə qərar qəbul edilmiş, əlavə olaraq 4 yeni layihənin sınaq mühitinə qəbulu təsdiqlənmişdir. Eyni zamanda virtual aktivlər

sahəsində tənzimləyici çərçivənin formalaşdırılması üzrə qanun layihəsinin ilkin versiyası hazırlanmışdır.

Maliyyə sektorunda müştəri identifikasiyası və məlumat mübadiləsinin rəqəmsallaşdırılması məqsədilə “Paylanmış – Öz Müştərini Tanı” (e-KYC) platformasının konsepsiyası hazırlanaraq 2025-ci ildə təsdiq edilmiş və mərhələli tətbiqinə başlanılmışdır. Konsepsiya çərçivəsində məlumat kateqoriyaları müəyyən edilmiş, bazar iştirakçılarının maraqları və iqtisadi modeli üzrə sorğular aparılmış, seçilmiş maliyyə institutları ilə test mərhələsinə start verilmişdir. Platformanın tətbiqi nəticəsində əməliyyat xərclərinin azaldılması, müştəri təcrübəsinin yaxşılaşdırılması və AML/CFT risklərinin minimuma endirilməsi hədəflənir.

Ümumilikdə, həyata keçirilən bu təşəbbüslər ölkədə rəqəmsal maliyyə ekosisteminin formalaşmasına, innovasiyaların təşviqinə və maliyyə sektorunun davamlı inkişafına sistemli töhfə verməkdədir.

### 2.8. Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması və maliyyə maarifləndirmə işlərinin aparılması

*2025-ci il ərzində Mərkəzi Banka daxil olmuş müraciətlər əsasında maliyyə xidmətləri sahəsində istehlakçıların və investorların hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.*

2025-ci il ərzində istehlakçılar və investorlardan yazılı, qaynar xətt, qəbul və Votsap vasitəsilə ümumilikdə 85373 müraciət daxil olmuşdur. 20 564 yazılı müraciətin 72%-i (14 802 müraciət) bank sektorunu əhatə etmiş, 14%-i (2 873 müraciət) sığorta sektoruna, 1.9%-i (389 müraciət) kapital bazarları sektoruna, 1.02%-i (210 müraciət) ödəniş sistemlərinə, 0.02%-i (4 müraciət) valyuta mübadiləsi məntəqələrinə və 11.06%-i (2 286 müraciət) isə digər məsələlərə aid olmuşdur. İl ərzində “966” qaynar xəttinə daxil olmuş 60 504 zəng operativ şəkildə cavablandırılmış, 1 600 vətəndaşla görüş (1 390 vətəndaşla yerində, 207 vətəndaşla səyyar qəbul və 3 vətəndaşla onlayn qəbul olmaqla) keçirilmiş, Votsap xidmətinə daxil olan 2 705 müraciətə baxılmışdır.

Mərkəzi Bankın ərazi idarələrində, həmçinin respublikamızın Cəlilabad, Tərtər, Qazax, Balakən, Xaçmaz, Biləsuvar, Cəbrayıl, Qusar, İsmayıllı, Beyləqan, Xızı rayonlarında, eləcə də Gəncə, Mingəçevir və Şirvan şəhərlərində vətəndaşların səyyar qəbulu həyata keçirilmişdir.

Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə Mərkəzi Bankın təşəbbüsü ilə Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fintex Assosiasiyası və Azərbaycan Kapital Bazarları Assosiasiyası nəznində işçi qrupları yaradılmışdır. İşçi qruplarının, o cümlədən assosiasiya nümayəndələrinin iştirakı ilə görüş keçirilmiş, Mərkəzi Bank tərəfindən nəzarət subyektlərinə ünvanlanmış vətəndaş müraciətlərinin mahiyyəti üzrə cavablandırılması zamanı qanunvericiliyin tələblərinə əməl olunması, işçi qruplarının effektiv fəaliyyəti, bu istiqamətdə görülmüş və cari ildə görüləcək işlər barədə məsələlər diqqətə çatdırılmışdır.

Maliyyə xidmətləri istehlakçılarının və investorların Mərkəzi Banka müraciət imkanlarının genişləndirilməsi və müraciətlər üzrə məlumat əlçatanlığının təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlərin davamı olaraq Mərkəzi Bankın myGov platformasında vətəndaşlara xidmət göstərən qurumlar siyahısına əlavə olunmaqla, sözügedən platforma üzərindən elektron müraciətlərin qəbul olunması imkanı

yaradılmışdır. Bundan əlavə, Mərkəzi Bank vətəndaş məmnunluğu və kommunikasiya vasitələrinin əlçatanlığı məsələlərini də diqqət mərkəzində saxlayaraq vətəndaşlara "myGov" platformasına inteqrasiya olunmuş onlayn növbə sistemi vasitəsilə Mərkəzi Banka gəlmədən növbə əldə etmək imkanı yaratmışdır. Bununla da vətəndaşlar myGov veb-səhifəsində müvafiq siyahıdan Mərkəzi Bankı seçməklə, müraciətlərini onlayn qaydada Banka ünvanlaya bilərlər.

Həmçinin, vətəndaş məmnuniyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş növbəti təşəbbüs çərçivəsində ölkə ərazisində fəaliyyət göstərən elektron pul təşkilatları və ödəniş təşkilatları tərəfindən istehlakçılara təqdim edilən ödəniş xidmətləri üzrə qarşılaşılan çətinliklər və suallarla əlaqədar müraciətlərin Mərkəzi Banka vaxtında bildirilməsi təmin edilmişdir. Bu məqsədlə Mərkəzi Bankın “966” Qaynar xətti barədə məlumatın həmin təşkilatların fiziki ödəniş terminallarının əsas səhifəsində, habelə internet resursları və mobil tətbiqlərində əks olunması tapşırılmış, qeyd olunan istiqamət üzrə Mərkəzi Bank tərəfindən monitorinq aparılmış və tapşırığın icra edildiyi müəyyən edilmişdir.

Maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsinin gücləndirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin artırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə müvafiq dövlət qurumları və təşkilatlarla həyata keçirilən əməkdaşlıq çərçivəsində Mərkəzi Bankın əməkdaşları “ASAN Xidmət”in “108” Çağrı mərkəzində olmuş, mərkəzin sistemi və iş prosesi ilə yerində tanış olmuşlar.

Bundan əlavə, maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının qorunması istiqamətində səmərəliliyin artırılmasını və məlumat əlçatanlığının təmin olunması məqsədilə Mərkəzi Bankın rəsmi veb-səhifəsində Sual-cavab bölməsində Çağrı mərkəzinə daxil olan müraciətlər əsasında məlumat bazası yenilənmişdir.

Mərkəzi Bank maliyyə xidmətləri istehlakçıları və investorların hüquqlarının müdafiəsinin möhkəmləndirilməsi istiqamətində təşəbbüsləri davam etdirərək Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fintex Assosiasiyası İctimai Birliyi və Azərbaycan Kapital Bazarları Assosiasiyasının, həmçinin assosiasiyalara üzv olan təşkilatların Çağrı mərkəzi əməkdaşlarının 150-yə yaxın nümayəndəsinin iştirakı ilə görüş keçirmişdir. Maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi sahəsində çağrı mərkəzlərinin rolunun vacibliyi mövzusuna həsr olunan görüşdə Mərkəzi Bankın Çağrı mərkəzinin fəaliyyətinin təşkilindən bəhs olunmuş və təşkilatların qaynar xətt nömrələri vasitəsilə məlumat əlçatanlığının təmin olunmasının vacibliyi bildirilmişdir.

Mərkəzi Bankın nümayəndə heyəti Qarabağ Regional DOST Mərkəzində əlilliyi olan şəxslərin hüquqlarının qorunması sahəsində dövlət monitorinqinin həyata keçirilməsi çərçivəsində təşkil olunmuş görüşdə, eləcə də DOST Agentliyinin təşkilatçılığı ilə “Əlilliyi olan şəxslərə kreditlərin və həyat sığortalarının verilməsi” mövzusunda keçirilmiş müzakirədə iştirak etmişdir. Görüşlərdə əlilliyi olan şəxslərin hüquqlarının qorunması və maliyyə xidmətlərinə əlçatanlığın təmin edilməsi istiqamətində görülmüş işlər ilə bağlı müzakirə aparılmış və bu istiqamətdə Mərkəzi Bank tərəfindən aidiyyəti qurumlarla koordinasiyalı surətdə həyata keçirilən təşəbbüslərdən bəhs edilmişdir.

Mərkəzi Bankda media nümayəndələri üçün "Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunmasında Mərkəzi Bankın rolu" mövzusunda növbəti təlim keçirilmişdir. Təlim zamanı Mərkəzi Bankın nümayəndələri tərəfindən maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsinə dair görülən işlər, bu sahədə formalaşdırılmış hüquqi və

institusional baza, eləcə də vətəndaş müraciətlərinə baxılması mexanizmləri və tətbiq olunan müasir yanaşmalar haqqında mühüm məqamlar səsləndirilmişdir.

Mərkəzi Bankda Milli Depozit Mərkəzi ilə birgə "açıq mikrofon" formatında bir sıra səhmdar cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir. Görüş zamanı səhmdar cəmiyyətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi, emitentlərin illik hesabatlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada tərtib edilməsi, səhmdarların ümumi yığıncaqlarının çağırılması və cəmiyyətlərin fəaliyyətinin qanunvericiliyə uyğun həyata keçirilməsi istiqamətində mühüm məlumatlar təqdim olunmuşdur.

İnvestorların hüquqlarının qorunması məqsədilə həyata keçirilən təşəbbüslərin davamı olaraq Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası idarəsində regionda fəaliyyət göstərən səhmdar cəmiyyətlərin nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir.

Ədliyyə Akademiyası və Mediasiya Şurası tərəfindən Mərkəzi Bankın əməkdaşlarının da iştirakı ilə "İnsan hüquqlarının müdafiəsi, qanunun aliliyi, hüquq mədəniyyəti, hüquqi məsuliyyət və inklüziv cəmiyyət prinsiplərinin təbliği" mövzusunda seminar keçirilmişdir. Seminar zamanı insan hüquqlarının müdafiəsinin əhəmiyyəti və dövlətin insan hüquqlarının qorunmasında rolu barədə müzakirələr aparılmış, hüququn aliliyi və qanunun üstünlüyü mövzusunda fikirlər səsləndirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatından daxil olmuş məktuba əsasən "İnsan Hüquqları Aylığı" çərçivəsində həyata keçirilməsi məqsədilə görüləcək işlərlə bağlı Tədbirlər Planı hazırlanmış, bu istiqamətdə işlər icra olunmuş və məlumatlar ictimaiyyətə açıqlanmışdır.

Mərkəzi Bankın Çağrı Mərkəzinin fəaliyyətinin optimallaşdırılması, eyni zamanda əməkdaşların bilik və bacarıqlarının daha da artırılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Qazaxıstan Milli Bankının nümayəndələri ilə onlayn formatda görüş həyata keçirilmişdir. Bununla yanaşı, sığorta sahəsində istehlakçıların hüquqlarının müdafiəsi üzrə Türkiyə Respublikasının Sığorta və Özəl Pensiya Tənzimləmə və Nəzarət Qurumunun, eləcə də Sığorta Arbitraj Mərkəzinin təcrübəsi öyrənilmişdir.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Mərkəzi Bankın funksiyalarından biri də maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması məqsədi ilə tədbirlərin görülməsi olduğu nəzərə alınaraq bu funksiyanın icrası istiqamətində Mərkəzi Bank tərəfindən mütəmadi olaraq işlər görülür və həmin işlər barədə ictimaiyyətin məlumatlandırılması təmin edilir.

Mərkəzi Bank tərəfindən maliyyə sektorunu əhatə edən "Maliyyə institutlarının bazar davranışlarına dair Metodoloji Rəhbərlik" layihəsinin ilkin versiyası hazırlanmış, maliyyə institutlarının, eləcə də Dünya Bankının nümayəndələrinin rəyləri toplanaraq təkmilləşdirilmişdir. Hazırda sənədin yekun versiyası üzərində işlər aparılır. Bu Rəhbərlik maliyyə institutlarının bazar davranışlarının, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi, maliyyə sektorunda ədalətsiz təcrübələrin qarşısının alınması, informasiya açıqlığının və şəffaflığının artırılması, maliyyə məhsulları və xidmətlərindən faydalanan şəxslərin maliyyə savadlılığının artırılması və maliyyə məhsullarının və xidmətlərinin keyfiyyətinin artırılması, habelə istehlakçıların şikayətlərinin effektiv həlli məqsədini daşıyır.

Eyni zamanda bazar davranışları üzrə risk əsaslı nəzarətin formalaşdırılması istiqamətində Mərkəzi Bank tərəfindən bank sektorunun bazar davranışlarına risk əsaslı nəzarət üzrə təlimat hazırlanmışdır. Bu təlimat bank sektorunda istehlakçılara təsir səviyyəsi

daha yüksək olan, eləcə də bazar davranışları baxımından daha yüksək risk daşıyan bankların müəyyən edilməsinə, bu banklara münasibətdə nəzarət resurslarının daha səmərəli və proporsional şəkildə yönəldilməsinə, nəticə etibarilə isə istehlakçıların hüquqlarının daha effektiv qorunmasına və bazar intizamının gücləndirilməsinə xidmət edəcəkdir.

Sığorta hadisəsi baş verdikdən sonra zərərin miqdarı ilə bağlı tərəflər (sığortaçı ilə zərərçəkən) arasında razılıq əldə edilmədikdə zərərin miqdarını qiymətləndirmək üçün təyin olunan müstəqil ekspertlərin fəaliyyətinin qiymətləndirilməsi, onların istehlakçılara göstərdiyi xidmətin keyfiyyətini və istehlakçının məmnunluq səviyyəsini ölçmək məqsədilə ilkin "skorinq" sistemi hazırlanmışdır. Bu sistem istehlakçının müstəqil ekspertin xidmətindən istifadə edərkən seçim etmələrinə dəstək göstərmək məqsədi daşıyır.

İl ərzində müxtəlif hədəf qrupları üçün maliyyə savadlılığının artırılması istiqamətində işlər davam etdirilmişdir. Belə ki, Elm və Təhsil Nazirliyi tərəfindən təqdim olunan məktəblərin şagirdlərinə, DOST Agentliyinin Gənc və Gümüşü DOST könüllülərinə, “Maliyyə savadlılığı davamlı və dayanıqlı biznes üçün” adlı tədbirdə qadın sahibkarlara, “İqtisadi jurnalistikanın inkişafına dəstək proqramı” çərçivəsində Bakı Slavyan Universiteti tələbələrinə müxtəlif mövzularda təlim sessiyaları keçirilmişdir. Ənənəvi və onlayn keçirilən təlimlərdə ümumilikdə 1070 nəfər iştirak etmişdir.

İl ərzində maliyyə məlumatlılığı istiqamətində müxtəlif müsabiqələrin təşkil edilməsi davam etdirilmişdir. Belə ki, 2025-ci ilin mart ayında Qlobal Pul Həftəsi (Global Money Week) münasibətilə “Rəqəmsal dünyada təhlükəsiz ödənişlər: öz məlumatlarımızı və pulumuzu necə qoruyaq?” mövzusunda məktəblərarası müsabiqənin təqdimat tədbiri keçirilmişdir. Müsabiqədə 2032 şagird iştirak etmişdir. Bundan əlavə, noyabr-dekabr aylarında 13–15 yaşlı məktəblilər arasında Maliyyə Savadlılığı Viktorinası təşkil olunmuşdur. Layihə Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Banklar Assosiasiyası (ABA), həmçinin Azərbaycan Bank və Maliyyə Tədris Mərkəzinin (ABFTC) təşkilati dəstəyi ilə həyata keçirilib. Qeydiyyat, yarımfinal və final mərhələsindən ibarət olan layihədə 1237 şagird iştirak etmişdir.

Mikro, kiçik və orta sahibkarların maliyyə maarifləndirməsi istiqamətində ehtiyaclarının müəyyən olunması məqsədilə onlayn sorğu keçirilmişdir. Sorğu nəticələri əsasında sahibkarlar üçün KOBİA ilə maarifləndirmə proqramı hazırlanmışdır. Həmin proqram çərçivəsində Mərkəzi Bankın Virtual Təhsil Platformasında "Biznesin maliyyələşdirmə alətləri" adlı onlayn kurs hazırlanmışdır. Bu istiqamətdə Azərbaycan Biznesinin İnkişafı Fondu, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu və Azərbaycan Banklar Assosiasiyasının ekspertləri cəlb edilmişdir. Bundan əlavə, sahibkarların maliyyə savadlılığının artırılması məqsədilə faktorinq, lizinq, biznes kreditləri, İpoteka və Kredit Zəmanət Fondunun kredit zəmanəti, habelə Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli kreditləri barədə qısa videoçarxlar hazırlanmışdır.

“Daşınar əmlakın yüklülüyü haqqında” Qanunun, Daşınar əmlakın yüklülüyü haqqında vahid hüquqi çərçivə, üstünlük hüququ / tutmanın yönəldilməsi, təminat kimi göstərilə biləcək daşınar əmlakların, borcların və öhdəliklərin növləri barədə bank olmayan kredit təşkilatlarının nümayəndələrinə maarifləndirmə tədbiri keçirilmişdir. Eyni zamanda, Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestri üzrə real nümunələrə əsaslanan animasiyalar hazırlanmışdır. Bundan əlavə, yüklülük predmetlərinin onlayn qeydiyyatını, axtarışını, düzəlişini və xitamını təmin edən müasir funksiyalarla bağlı qısa maarifləndirici çarxlar hazırlanmışdır.

Maliyyə sektorunu təmsil edən assosiasiyaların (ABA, ASA, AzFina, AKBA və AMFA) maliyyə savadlılığının artırılması istiqamətində illik fəaliyyət planları müəyyənləşdirilmiş və ölkə üzrə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə, həm virtual, həm də canlı formatda bank, sığorta, kapital və ödəniş sektorlarını əhatə edən, həyatın müxtəlif mərhələlərinə uyğun hədəf qrupları (məktəblilər, tələbələr, məşğul əhali, böyük alış sahibləri, təqaüdçülər, qadınlar, regionlarda yaşayan əhali və xüsusi ehtiyaclı şəxslər) üzrə məlumatlandırıcı və düzgün maliyyə davranışlarının formalaşdırılmasına yönəlmiş tədbirlər icra olunmuşdur.

Daşınar əmlakın yüklülüyü reyestrinin fəaliyyəti barədə məlumatlandırmanın genişləndirilməsi məqsədilə hazırlanmış maarifləndirici bukletlərin geniş auditoriyalara paylanması təmin edilmişdir. Bu istiqamətdə, 2025-ci il iyun, iyul və avqust ayları ərzində, 22 bank, 54 bank olmayan kredit təşkilatı və 36 kredit ittifaqına orta hesabla hər filiala 25 sayda olmaqla ümumilikdə 22 925 buklet təhvil verilmişdir.

Maliyyə-bank sistemində təqdim olunan məhsul və xidmətlərə dair bazar iştirakçıları və istehlakçıların bir mənbədən məlumatları əldə etməsi, müqayisə apararaq əlverişli məhsul və xidməti seçməsi, istehlakçıların maliyyə xidmətlərinə çıxış imkanlarının asanlaşdırılması və bu xidmətlərdən istifadənin stimullaşdırılması, maliyyə xidmətləri bazarında rəqabətin gücləndirilməsi, təqdim olunan məhsul və xidmətlərin keyfiyyətinin artırılması və şərtlərinin yaxşılaşdırılması məqsədi ilə infobank.az sisteminin fəaliyyəti davam etdirilmişdir.

### 2.9. Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi

*Hesabat dövründə Mərkəzi Bank valyuta tənzimi funksiyasını "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirmişdir. Rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları bu qanun və Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə tənzimlənmişdir.*

Ölkədə tətbiq olunan valyuta rejimi makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsinə, ölkənin tədiyə balansının tarazlaşmasına xidmət etmişdir.

Qüvvədə olan valyuta rejiminə uyğun olaraq valyuta nəzarətinin effektivliyini artırmaq, valyuta vəsaitlərinin ölkədən qanunsuz çıxarılmasının qarşısını almaq məqsədilə rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarına monitorinq və nəzarətinin gücləndirilməsi üçün tədbirlər davam etdirilmişdir. Mərkəzi Bankın İdarə Heyətinin 20 dekabr 2023-cü il tarixli 62/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Valyuta əməliyyatları barədə vahid informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq valyuta mübadiləsi əməliyyatları barədə məlumatların 2024-cü ilin 1 mart tarixindən etibarən Mərkəzi Bankın informasiya sisteminə təqdim edilməsinə başlanılmışdır.

2025-ci ildə valyuta rejiminin optimallaşdırılması məqsədilə Mərkəzi Bankın 2023-cü il 11 dekabr tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası"nda və 2023-cü il 20 dekabr tarixli 62/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yerli bankların şöbələrinin fəaliyyəti ilə bağlı şərtlər və tələblər, habelə banklar, onların filial və şöbələri tərəfindən nağd qaydada valyuta mübadiləsi əməliyyatlarının aparılması Qaydası"nda dəyişikliklər edilmişdir. Qaydalar üzrə əsas dəyişiklik artıq təqvim ili ərzində deyil, son bir il ərzində 20 000 (iyirmi min) manat və ona ekvivalentdən artıq məbləğdə əməliyyat aparan fiziki şəxslərə münasibətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiq edilməsi ilə bağlıdır.

Təhlillər göstərmişdir ki, tətbiq olunan valyuta rejimi 2025-ci ildə ölkəyə xarici valyutanın mədaxili və ölkədən məxarici arasında nisbətin optimallaşmasında müsbət rol oynamışdır. 2024-cü ildə ölkədə fəaliyyət göstərən banklar və "Azərpoçt" MMC tərəfindən əhaliyə xalis nağd valyuta satışı 1362 mln. ABŞ dolları olduğu halda (satış 3198 mln. USD, alış 1836 mln. USD), 2025-ci ildə 423 mln. ABŞ dolları məbləğində xalis nağd valyuta alışı olmuşdur (satış 1996 mln. USD, alış 2419 mln. USD).

31.12.2025-ci il tarixinə əhaliyə nağd valyuta mübadiləsi xidmətləri 22 bankın 502 filialı və 87 şöbəsi, "Azərpoçt" MMC və xidmət şəbəkəsi, habelə 9 valyuta mübadilə məntəqəsi (2-si əlavə obyekt olmaqla) tərəfindən göstərilir.

## 2.10. Əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi

*2025-ci il ərzində Mərkəzi Bank əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi istiqamətində tədbirlərini davam etdirmişdir.*

Mərkəzi Bankla razılaşdırılmaqla milli valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin müəyyən edilməsinə dair metodologiya Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının 27.08.2025-ci il tarixli iclasında müzakirə edilmiş və 2026-cı ildən tətbiq edilməsinə dair qərar qəbul etmişdir.

2025-ci ilin ərzində Mərkəzi Bank əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi istiqamətində tədbirlərini davam etdirmişdir.

# 3. Mərkəzi Bankın fəaliyyətinin maliyyə nəticələri

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mərkəzi Bankın 31 dekabr 2025-ci il tarixinə gəlirləri 1059.6 mln. manat təşkil etmişdir. Gəlirlərin 863.8 mln. manatı valyuta aktivlərinin idarə edilməsi üzrə faiz, yenidən qiymətləndirmə və konvertasiya gəlirlərindən, 69.5 mln. manatı daxili bazarda əldə edilmiş qiymətli kağızlar üzrə faiz gəlirlərindən, 6.9 mln. manatı mərkəzləşdirilmiş kredit resursları üzrə faiz gəlirlərindən, 18.5 mln. manatı müştərilərə göstərilən xidmətlər üzrə gəlirlərdən ibarət olmuşdur. Həmçinin 8.8 mln. manatı maliyyə aktivlərinin amortizasiyası və 0.7 mln. manatı həmin aktivlərin ədalətli dəyərinin dəyişiklikləri üzrə gəlirlər, 0.7 mln. manatı isə daxili bazarda törəmə maliyyə alətləri üzrə gəlirlər yaratmışdır. Əlavə olaraq 12.8 mln.manatı amortizasiya olunan kateqoriyasına aid maliyyə aktivləri üzrə yaradılmış ehtiyatların bərpasından və 14.5 mln. manatı xatirə və investisiya pul nişanlarının satışı, investisiya mülkiyyətinin yenidən qiymətləndirmə üzrə və s. gəlirlərdən formalaşmışdır. Valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə mühasibat gəliri 63.4 mln. manat təşkil etmişdir.

Hesabat dövründə Mərkəzi Bankın xərcləri bütövlükdə 334.8 mln. manat təşkil etmişdir ki, bu xərclərin 211.6 mln. manatı əməliyyat xərclərinin payına düşür. Əməliyyat xərcləri əsasən Mərkəzi Bankın həyata keçirdiyi sterilizasiya əməliyyatları nəticəsində yaranmış xərclərdən, o cümlədən 114.9 mln. manatı banklardan cəlb edilmiş depozitlər üzrə, 27.8 mln. manatı AMB-nin notları üzrə, 13.7 mln. manatı isə banklarla repo əməliyyatları üzrə faiz xərclərindən ibarət olmuşdur. Bundan əlavə, əməliyyat xərclərinin 2.2 mln. manatını xarici maliyyə bazarlarında əməliyyatlar üzrə komissiya xərcləri, 31.5 mln. manatını Dövlət Xəzinədarlıq Agentliyi, Azərbaycan Dövlət Neft Fondu və Əmanətlərin Sığortalanması Fondu üzrə faiz xərcləri, 3.8 mln. manatını Beynəlxalq Valyuta Fondu üzrə xalis faiz xərcləri, 3.0 mln. manatını nağd xarici valyutanın gətirilməsi xərcləri, 14.7 mln. manatını isə kağız və

metal pulların (o cümlədən yubiley və xatirə pul nişanlarının) hazırlanması və nəqli üzrə xərclər təşkil etmişdir.

Əməliyyat xərcləri çıxıldıqdan sonra Mərkəzi Bankın xərclərinin 123.2 mln. manatı inzibati və digər ənənəvi xərclərdən, o cümlədən 65.2 mln. manatı işçilərin əmək haqqı və Dövlət Sosial Müdafiə Fonduna ayırmalar üzrə xərclərdən, 28.8 mln. manatı əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə köhnəlmə xərclərindən, 29.2 mln. manatı digər ənənəvi xərclərdən (proqram təminatı və serverlərin dəstəklənməsi, inzibati binanın saxlanma və mühafizə xərcləri, ezamiyyə və s. xərclər) ibarət olmuşdur.

Beləliklə, 2025-ci il üzrə Mərkəzi Bankın maliyyə fəaliyyəti 724.8 mln. manat mənfəət ilə nəticələnmiş, reallaşdırılmış mənfəətin sərbəst qalığı isə 586.0 mln. manat təşkil etmişdir.

31.12.2025-ci il tarixə Mərkəzi Bankın cəmi kapitalı 2154.4 mln. manat, o cümlədən xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üçün məcmu gəlir üzrə ehtiyat 33.3 mln. manat, ədalətli dəyərinin dəyişməsi sair məcmu gəlirə aid olunan qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə mühasibat gəliri 6.0 mln. manat, bölüşdürülməmiş mənfəəti isə 1115.1 mln. manat təşkil etmişdir.

Mərkəzi Bankın əvvəlki ildə (2024-cü) əldə etdiyi mənfəətin sərbəst qalığı hesabına 2025-ci ildə 542.2 mln. manat məbləğində vəsait Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna köçürülmüşdür.